1 iyun 2022 №41 (1914)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Türkiyə-Azərbaycan qardaşlığı xalqlarımız üçün əsas yol istiqamətidir”



Müstəqillik Günü bizim ən əziz bayramımızdır. Bu bayramı ikiqat bayram edən əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bizimlə bərabər olmasıdır.

Prezident İlham Əliyev bu sözləri mayın 28-də Bakıda keçirilən “TEKNOFEST Azərbaycan” Festivalında çıxışı zamanı bildirib.

Dövlət başçısı qeyd edib ki, biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik ve edəcəyik ki, qabaqda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir. Bölgə və dünya üçün də çox önəmli faktordur. Türkiyə-Azərbaycan bir yerdə nə qədər inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaq.

“Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördü. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında “Azərbaycan tək deyil, Türkiyə onun yanındadır” deməsi bizə ələvə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq”, – deyə İlham Əliyev vurğulayıb.

## TÜRKSOY Muzeylər Birliyi Bursada quruldu

### Yeni təsis olunan birliyin toplantısına gələn il Şuşa ev sahibliyi edəcək

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Türkiyənin UNESCO üzrə Milli Komissiyası və Bursa Böyükşəhər Bələdiyyəsinin birgə təşkilatçılığı ilə 26-28 may tarixində Bursada “Türk dünyası muzeylər görüşü” keçirilib.




TÜRKSOY-un təşəbbüsü ilə 2013-cü ildən keçirilən ənənəvi toplantıya bu dəfə 2022-ci ilin “Türk Dünyasının Mədəniyyət Paytaxtı” Bursa ev sahibliyi edib. “Türk dünyası muzeylərində qeyri-maddi mədəni irs” mövzulu görüşə Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şimali Kipr, Rusiya Federasiyasının Tuva və Tatarıstan respublikaları, eləcə də Serbiya, Makedoniya, Macarıstan, Əfqanıstan və İraqdan muzey mütəxəssisləri və rəhbərləri qatılıblar.

Tədbirdə ölkəmizi Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova və Mədəniyyət Nazirliyi Muzey və daşınar mədəni irs sektorunun aparıcı məsləhətçisi Kənan Hüseynov təmsil ediblər.

Toplantıda müxtəlif ölkələrdən muzey rəhbərləri və mütəxəssislərin ümumilikdə 50-dən çox məruzəsi təqdim edilib. Şirin Məlikova “Azərbaycan Milli Xalça Muzeyində Türk dünyasının ortaq mirası olan xalçaçılıq sənətinin yaşadılması və tanıdılması” mövzusunda çıxış edərək, iştirakçılara ölkəmizin xalçaçılıq sənəti və muzeyin fəaliyyəti haqqında məlumat verib.

Türk dünyası ölkələri arasında muzeyşünaslıq sahəsində qarşılıqlı məlumat mübadiləsi, təcrübə mübadiləsi və əməkdaşlığı təmin etmək məqsədilə təsis edilən görüşdə TÜRKSOY Muzeylər Birliyinin yaradılması istiqamətində də mühüm addım atılıb. Tədbirin son günündə TÜRKSOY Muzeylər Birliyinin təsis toplantısı olub.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Muzeylər şöbəsinin müdiri, Beynəlxalq Muzeylər Şurası (İCOM) Türkiyə Milli Komitəsinin sədr müavini Bülent Gönültaş TÜRKSOY-un bu təşəbbüsünə hər cür dəstəyi verməyə hazır olduqlarını bildirib. O, birliyin koordinatorluğunun cari il üçün Türkiyə tərəfindən həyata keçirilməsini, 2023-cü il üçün “Türk Dünyasının Mədəniyyət Paytaxtı” seçilmiş Şuşa şəhərində keçiriləcək növbəti iclasda Azərbaycan Mədəniyyət Nazirliyinə təhvil verilməsini təklif edib. Birliyə koordinatorluğun növbə ilə “Türk Dünyasının Mədəniyyət Paytaxtı” missiyasını qəbul edən ölkələr tərəfindən davam etdirilməsi təklifi də razılıqla qarşılanıb.

Toplantının sonunda razılaşdırılan məsələlər bəyanat şəklində hazırlanaraq iştirakçıların imzasına təqdim edilib. TÜRKSOY Muzeylər Birliyinin növbəti toplantısının 2023-cü ildə “Türk Dünyasının Mədəniyyət Paytaxtı” Şuşa şəhərində keçirilməsi qərara alınıb.

## “Əgər iki il əvvəl kimsə mənə bu gün Kəlbəcərdə çay içəcəyimi desəydi...”

Mayın 31-də Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri və hərbi attaşelərin Kəlbəcər rayonuna səfəri təşkil edilib. Səfərin məqsədi diplomatları Ermənistan silahlı qüvvələrinin işğal zamanı Kəlbəcərdə törətdiyi barbarlığın izləri ilə tanış etməkdir.

Nümayəndə heyətinə rayonda törədilən dağıntıların miqyası, aparılan quruculuq işləri barədə məlumat verilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, xarici diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə tanışlıq səfərlərinin təşkili davam etdirilir. Bu, diplomatik korpusun işğaldan azad edilmiş ərazilərə artıq sayca 9-cu səfəridir. Səfərdə 50-dən çox ölkə və 10-dək beynəlxalq təşkilatdan 80 nəfərdən çox nümayəndə iştirak edib.

“Əgər iki il əvvəl kimsə mənə bu gün Kəlbəcərdə çay içəcəyimi desəydi, mən ona inanmazdım. Amma biz buradayıq və çayımızı içirik və hökumət tərəfindən tikilmiş elektrik stansiyası, dağın altından keçən tunel kimi infrastruktur obyektləri ilə tanış oluruq”.

Bu sözləri İsrailin Azərbaycandakı səfiri Corc Dik jurnalistlərə açıqlamasında deyib.

davamı səh. 2-də

## Bölgələrdə mədəniyyət işçilərinin peşəkarlıq və təşəbbüskarlığının artırılması günün tələbidir

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanan bölgələrə səfər planına uyğun olaraq, nazir Anar Kərimov mayın 27-də Ağcabədi rayonunda olub.

Nazir rayonda bir sıra müəssisələrə baş çəkib, eləcə də Ağcabədi Regional Mədəniyyət İdarəsi üzrə rayonların mədəniyyət işçiləri ilə görüş keçirib.

Mədəniyyət naziri Anar Kərimov və Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.



Sonra Anar Kərimov Ağcabədi rayon Heydər Əliyev Mərkəzinə baş çəkib, müəssisənin fəaliyyəti ilə tanış olub.

Mədəniyyət naziri Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyinə də baxış keçirib. Nazirə məlumat verilib ki, 5000-dən çox eksponatın mühafizə olunduğu muzeyin binası iki mərtəbədən, 6 ekspozisiya otağından ibarətdir. Muzeyin ən qədim eksponatları arasında arxeoloqların rayon ərazisində qazıntı işləri zamanı aşkarladıqları eramızdan əvvəl VI-V minilliklərə (Neolit dövrü) aid sümükdən iynə, biz və daşdan məişət əşyaları və s. mövcuddur. Muzeydə eksponatlar “Təbiət”, “Arxeologiya”, “Etnoqrafiya”, “Görkəmli şəxsiyyətlər”, “Sovet dövrü” və “Müasir dövr” bölmələri üzrə qruplaşdırılıb.

davamı səh. 3-də

## Sara Qədimovanın doğum günündə məzarı ziyarət olundu



Mayın 31-də görkəmli xanəndə, Xalq artisti Sara Qədimovanın (1922-2005) anadan olmasının 100-cü ildönümü tamam oldu. Bu münasibətlə I Fəxri xiyabanda muğam ustadının məzarı ziyarət olundu.

Mədəniyyət Nazirliyinin əməkdaşları, incəsənət xadimləri sənətkarın məzarı üzərinə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad etdilər.

Nazirliyin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova çıxış edərək bildirdi ki, Sara Qədimova istedadı ilə xalqımızın məhəbbətini qazanan böyük sənətkarlarımızdandır. Onun xanəndə kimi yetişməsində Hüseynqulu Sarabski, Seyid Şuşinski, Xan Şuşinski kimi ustadların mühüm rolu olub. Sara xanım ömrünün 60 ildən çox dövrünü musiqi sənətinə həsr edib. Xanəndənin ifa etdiyi muğamlar, mahnılar milli musiqi xəzinəmizə qızıl hərflərlə yazılıb.

F.Acalova dedi ki, 2022-ci il mədəniyyətimiz üçün əlamətdar yubileylərlə zəngin ildir: “Bu il milli mədəniyyətimizin inkişafında müstəsna xidmətləri olmuş bir sıra sənətkarların 100 illiyi qeyd olunur. Onların qoyduğu mirası yaşatmaq, gələcək nəsillərə ötürmək bizim başlıca vəzifəmizdir”.

davamı səh. 2-də

## “Azərbaycan düşüncə tarixi” Türkiyə türkcəsində

Xəbər verildiyi kimi, 26-28 may tarixində Bakı Dövlət Universitetində (BDU) I Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı keçirilib.

Festival Azərbaycan Yazıçılar Birliyi, Milli Məclisin Mədəniyyət komitəsi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, TÜRKPA, Bakı Dövlət Universiteti, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları İdarəsi, Yunus Əmrə İnstitutu, İLESAM və Azərbaycan Yaradıcılıq Fondunun təşkilati dəstəyi ilə baş tutub.

Mayın 27-də festival çərçivəsində Türkiyədə nəşr olunmuş “Azərbaycan düşüncə tarixi” kitabının təqdimat mərasimi keçirildi.

Kitab Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin (YTB) dəstəyi ilə işıq üzü görüb. Türkiyə türkcəsində hazırlanan nəşr Karabük Universitetinin professoru Ələsgər Ələsgərlinin (Ali Asker) elmi redaktorluğu ilə azərbaycanlı alimlər tərəfindən ərsəyə gətirilib.

davamı səh. 3-də




## Gəncədə “Mədəniyyət tariximizin işıqları”

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 104-cü ildönümü ilə əlaqədar Gəncə şəhərində Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM), Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Rauf Hacıyev adına 15 nömrəli Musiqi məktəbinin birgə təşkilatçılığı ilə “Mədəniyyət tariximizin işıqları” adlı silsilə tədbirlər təşkil edilib.

Konsert proqramı və ustad dərslərindən ibarət silsilə tədbirlərdə Cümhuriyyət dövründə, habelə ondan əvvəl və sonra yaşamış tarixi şəxsiyyətlərin – xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 200, şairlər Xurşidbanu Natəvanın 190, Hüseyn Cavidin 140, Əhməd Cavadın 130, bəstəkarlar Fikrət Əmirovun 100 və Rauf Hacıyevin 100 illik yubileyləri qeyd edilib.

Silsilə tədbirlərin davamı olaraq Gəncə Dövlət Filarmoniyasında Rauf Hacıyev adına 15 nömrəli Musiqi məktəbinin şagird-müəllim kollektivi, Gəncə İncəsənət məktəbinin şagirdləri, eləcə də filarmoniyanın solistlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.



Tədbirdə Gəncə RMİ-nin rəisi Vasif Cənnətov və MEMİM-in direktoru Səadət Xələfbəyli çıxış ediblər. Musiqili-ədəbi gecədə Əhməd Cavadın, Natəvanın sözlərinə bəstələnmiş mahnılar, Rauf Hacıyev və Fikrət Əmirovun əsərləri, habelə Hüseyn Cavidin şeirləri səsləndirilib.

mövzunun davamı səh. 4-də

Sizin gününüzdür, uşaqlar!



səh. 4

Firəngiz Əlizadənin 75 illik yubileyi münasibətilə musiqi festivalı

səh. 2



Milli Dram Teatrında “Zəfər yolu”nun premyerası

səh. 5

## Firəngiz Əlizadə Prezidentin fəxri diplomu ilə təltif edilib

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Prezident İlham Əliyevin mayın 27-də imzaladığı sərəncama əsasən, bəstəkar Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, mayın 28-də Firəngiz Əlizadənin 75 yaşı tamam olub. O, 1990-cı ildə respublikanın "Əməkdar incəsənət xadimi", 2000-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb, 2007-ci ildə "Şöhrət", 2017-ci ildə "Şərəf" ordenləri ilə təltif olunub. 2007-ci ildə UNESCO-nun "Sülh artisti" adına, 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin "Zirvə" mükafatına, 2016-cı ildə AMEA-nın "Üzeyir Hacıbəyli" mükafatına layiq görülüb. 2017-ci ildə sənətşünaslıq ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilib. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik edir.

Firəngiz xanımı yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

## Audiovizual arxivin rəqəmsallaşdırılması və vahid bazasının yaradılması üçün

Prezident İlham Əliyev mayın 30-da "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin audiovizual arxiv materiallarının rəqəmsallaşdırılması və vahid bazasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.

Sərəncama əsasən, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-yə məxsus AzTV, Mədəniyyət TV, İdman TV, "Azərbaycan Radiosu" və "Beynəlxalq Radio"nun bir əsrə yaxın dövr ərzində formalaşmış zəngin audiovizual arxiv materiallarının qorunub saxlanılması, əksər hissəsi Azərbaycan xalqının maddi-mənəvi sərvətinə çevrilmiş həmin materialların rəqəmsallaşdırılması və vahid bazasının yaradılması məqsədilə Prezidentin ehtiyat fondundan 1 milyon manat ayrılıb.

## Yubilyar bəstəkarın 75 illiyi münasibətilə musiqi festivalı

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti, professor, AMEA-nın müxbir üzvü, UNESCO-nun "Sülh artisti", Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin 75 illik yubileyi silsilə tədbirlərlə qeyd edilir. Dünya şöhrətli bəstəkarın yubiley tədbirləri 1-4 iyun tarixində musiqi festivalı şəklində keçiriləcək.

1 iyun tarixində Beynəlxalq Muğam Mərkəzində bəstəkarın kamera əsərlərindən ibarət konsert proqramı təqdim ediləcək. Proqramda Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin (bədii rəhbər və baş dirijor, Xalq artisti Fəxrəddin Kərimov) müşayiəti ilə bəstəkarın kontrabas, tabla (hind zərb aləti) və kamera orkestri üçün "Deyişmə - II", simli orkestr üçün "Metamorfoses", solo vibrafon üçün "Sirius", solo violonçel üçün "Oyan" və kamera orkestri üçün "Dance" əsərləri səslənəcək. Konsertdə İsveçrə və Türkiyədən gələn solistlər çıxış edəcəklər.

İyunun 2-də Milli Kitabxanada Firəngiz Əlizadənin əsərləri və bəstəkarın həyat və yaradıcılığı haqqında nəşrlərdən ibarət sərgi açılacaq.

İyunun 3-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında bəstəkarın "Nizami Cosmology" ("Nizami fəzası") simfonik əsəri ukraynalı dirijor Kirill Karabitsin rəhbərliyi altında təqdim olunacaq. Əsər dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illiyi münasibətilə yazılıb. Nizami dühasını vəsf edən əsərin Bakıda ilk premyerasını musiqisevərlər səbirsizliklə gözləyirlər.

4 iyun tarixində isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Firəngiz Əlizadənin "İntizar" operasının tamaşası nümayiş olunacaq. Vətənpərvərlik mövzusunda yazılmış opera (libretto müəllifi – akademik Nərgiz Paşayeva) zəngin musiqi dili, dramaturji konsepsiyası, orkestr üslubu və orijinal səhnə təcəssümünə malik əsərdir. İlk dəfə 2007-ci ildə səhnəyə qoyulan və illər sonra şanlı Ordumuzun qazandığı Zəfərin carçısı olan operada torpaqlarımızın işğaldan azad edilməsi ideyası parlaq bədii əksini tapıb.

**Lalə**

## "Əgər iki il əvvəl kimsə mənə bu gün Kəlbəcərdə çay içəcəyimi desəydi..."



*əvvəli səh. 1-də*

Diplomat bildirib ki, Kəlbəcər rayonunun yenidən qurulması layihələrində İsrail Azərbaycanla əməkdaşlığa hazırdır. "Düşünürəm ki, bura böyük tərəfdaşlıq üçün yaxşı yer ola bilər. Biz külək və günəş enerjisi kimi alternativ enerji sahəsində çalışa bilərik. Biz həmçinin su resursları ilə bağlı da işləyə bilərik. Ötən ay İsrailin Milli Su Şirkəti (Mekorot) ilə Azərbaycanın aidiyyəti qurumu arasında su resursları üçün strateji planın hazırlanması ilə bağlı razılaşma imzalandı. Bu region su ilə zəngindir. Ona görə də düşünürəm ki, bu rayon bizim birlikdə işləməyimiz üçün fantastik yer ola bilər".

Azərbaycanın gözəl və çiçəklənən Qarabağa layiq olduğunu vurğulayan Corc Dik əlavə edib ki, bu gün ölkə irəliyə baxır və dağıdılmış yerlərin bərpasına çalışır.

"Kəlbəcər Azərbaycanın ən valehedici bölgələrindən biridir. Həqiqətən, çox gözəldir" – bunu isə Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp deyib.

Bölgədə həyata keçirilən infrastruktur işlərini, yol və tunellərin çəkilməsini, otlaqlardan heyvandarlıq üçün istifadə olunduğunu qeyd edən səfir "Bu o deməkdir ki, artıq insanlar burdadır, onlar bu torpaqlardan istifadə edirlər" deyə bildirib.

Diplomat minalardan təmizlənmə prosesinə də toxunub və əlavə edib ki, Britaniya Azərbaycana bu məsələdə tez bir zamanda dəstək verib: "Bu iş həm də maarifləndirici kampaniyaların aparılması ilə bağlıdır. Biz UNİCEF-ə maliyyə dəstəyi verdik. Bərdədə, Tərtərdə, Füzulidə, Horadizdə və digər regionlarda bununla bağlı kampaniyalar aparıldı. Həmçinin UNDP vasitəsilə ANAMA-ya dəstək vermişik. Britaniyalı ekspertlər burada təcrübələrini paylaşıblar. Bütün bu proseslər davam edir".

# Böyük Qayıdış Ağalı kəndindən başlayır

"Otuz ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, rahat yaşasınlar..."

Müstəqillik Günü ərəfəsində sizinlə Ağalı kəndində, dirçələn Ağalı kəndində görüşürük. Bunun çox böyük rəmzi mənası var. Bu gün hər bir Azərbaycan vətəndaşı görür ki, Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir.



Prezident İlham Əliyev bu fikri mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində deyib.

Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva kənddə yaradılan şəraitlə tanış olub, Ağalı kəndinin sakinləri ilə görüşüblər.

Görüşdə çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük. Biz Ermənistana deyirik ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin, sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın. "O ki qaldı, ermənilərin Azərbaycanda yaşamasına – istər Qarabağ bölgəsində, istər başqa yerlərdə bu məsələdə heç bir problem yoxdur. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri rahat yaşayırlar, bütün hüquqlardan istifadə edirlər... Azərbaycanda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət gedə bilməz... Ermənistan əgər hansısa xüsusi tələb irəli sürərsə, bilməlidir ki, bizim də bir çox tələblərimiz ola bilər. Bax, buraya çox da uzaq olmayan məsafədə bizim qədim torpağımız Qərbi Zəngəzurdur. Biz Ermənistana qarşı ərazi iddiası ilə çıxış etmirik ki? Etmirik. Amma əgər onlar bizə qarşı ərazi iddiası ilə çıxış edəcəksə, biz niyə etməməliyik?", – deyə İlham Əliyev bildirib.

Prezident qeyd edib ki, biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq: "Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır – Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmiryolunu görür, avtomobil yolunu görür. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək. Zəngilan şəhərinin Baş planı ilə tanış oldum. Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir...".

Dövlət başçısı diqqətə çatdırıb ki, Ağalı kəndinin yenidən qurulması ötən il başlayıb. İndi 200 evdən ibarət gözəl kənd salınıb. Vaxtilə bu kənddə yaşamış ailələrin sayı 200-dən çoxdur: "Ona görə yeni layihə təqdim edildi. Əlavə 150 evin, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – "ASAN", "DOST", kiçik və orta biznesə dəstək, hər şey burada var. Bir o qalıb ki, otuz ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda inşaat işləri daha sürətlə gedəcək".

Prezident xatırladıb ki, keçən il Müstəqillik Günündə Ağdamda bu rayonun sakinləri ilə görüşü zamanı Ağdam şəhərinin Baş planı təsdiqlənmiş və şəhərin yenidən qurulması işlərinə başlanılmışdı. Bu il də Müstəqillik Günü ərəfəsində Zəngilanda yenidən inşa olunmuş ilk kəndin açılış mərasiminə qatılıb: "Bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq. Xalqımız artıq otuz ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır".

## Zəngilanda İşğal və Zəfər muzeyləri kompleksi necə qurulacaq?

Tarixi yaddaşı yaşadacaq ən müasir təşviqat və informasiya mərkəzi

Xəbər verdiyimiz kimi, mayın 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi İşğal muzeyi, Zəfər muzeyi və dağıntıları əks etdirən Memorial parkdan ibarət olacaq.

İşğal muzeyi otuz ilə yaxın sürən işğal zamanı Zəngilan şəhərinin və bölgənin məruz qaldığı vandallığın əyani surətdə nümayiş etdirilməsi məqsədi daşıyır. Zəngilan şəhərində törədilmiş dağıntıların bir hissəsinin Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında muzey kimi nümayiş etdirilməsi nəzərdə tutulur. İşğal muzeyində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara ciddi ziyan vurmaq məqsədilə törədilən ekoloji terror aktları barədə məlumatlar da diqqətə çatdırılacaq.

Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Muzey binasının şüşədən hazırlanacaq fasadının üzərindəki təsvirlər və naxışlar çinar yarpağına bənzəyəcək ki, bu da Zəngilan şəhərinin təbiətlə sıx əlaqəsini tərənnüm edəcək.

Zəngilanla bağlı tarixi faktların yaradıcı üsulla dağıntılar üzərində əks etdirilməsi üçün xüsusi layihə həyata keçiriləcək. Müxtəlif ölkələrdən cəlb olunacaq rəssamlar dağıntılar üzərində fərqli divar rəsmləri ("Street art") yaradacaqlar. Beləliklə, 10 min 500 kvadratmetr sahəni əhatə edən dağıntılardan ibarət Memorial park boyunca açıq səma altında sərgi təşkil olunacaq.

Zəngilanda yaradılacaq Zəfər muzeyi Azərbaycan xalqının və şanlı Ordumuzun 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirdiyi əzmkarlıq, rəşadət və peşəkarlığı əbədiləşdirən kompleks, həmçinin qazanılmış Qələbəni müasir təqdimat metodları ilə insanlara çatdıran məkan olacaq. Muzeyin binasının çinar meşəsini xatırladacaq fasadı dünyada sahəsinə görə ikinci ən böyük təbii çinar meşəsi olan Zəngilan meşələrinə həsr olunacaq. Foye vizual texnologiyalar vasitəsilə Zəfərə həsr olunan məlumatları nümayiş etdirmək üçün sərgi məkanı kimi istifadə olunacaq. Muzeydə 80 tamaşaçı yeri olan 4D kinoteatr da yaradılacaq. Gələcəkdə burada "Zangilan Earth Film Festival"ın təşkil olunması da nəzərdə tutulur.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədilə Zəfər muzeyi binasının yanında qəhrəmanlarımızın adlarının qeyd olunduğu beton hasar formasında "Memorial lövhə" yaradılacaq.

Hər iki muzey Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edən, beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü bərpa etməyə nail olan Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

## Sara Qədimovanın doğum günündə məzarı ziyarət olundu

"Yeganə qadın xanəndədir ki, muğamlarımızın hamısını oxuyub"

*əvvəli səh. 1-də*

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri və dirijoru, Xalq artisti Ağaverdi Paşayev bildirdi ki, Sara Qədimova gənc yaşlarında solist kimi həmin ansamblda çıxış edib: "Sara xanımın gözəl vokal səsi olub. Məlum olduğu kimi, bizim yeddi əsas və bir neçə əlavə muğamımız var. Sara xanım yeganə qadın xanəndədir ki, bu muğamların hamısını oxuyub və lentə yazdırıb".

Sonda sənətkarın oğlu, tanınmış müğənni Akif İslamzadə çıxış edərək Sara Qədimovanın xatirəsinə göstərilən yüksək ehtirama görə mərasim iştirakçılarına təşəkkürünü bildirdi.

Xatırladaq ki, Sara Bəbiş qızı Qədimova 31 may 1922-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Uşaqlıq illəri ata-baba yurdu Qarabağda, Ağdam rayonunun Gülablı kəndində



keçib. Kəndin sazlı-sözlü mühiti, habelə dövrün görkəmli sənətkarlarından Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və Xan Şuşinskinin tez-tez Gülablı kəndinə gələrək, musiqi məclisləri qurmaları Sara xanımda erkən çağlardan musiqiyə böyük həvəs yaradıb. O, 20-dən çox ölkədə Azərbaycan incəsənətini uğurla təmsil edib. İran, İndoneziya, Efiopiya və Özbəkistanın dövlət mükafatlarına layiq görülüb.

Xanəndə 1954-cü ildə "Əməkdar artist", 1965-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 1997-ci ildə "Şöhrət" ordeni ilə təltif olunub. Prezidentin fərdi təqaüdçüsü olub. 12 may 2005-ci ildə vəfat edib.

**Nurəddin Məmmədli**

## Akademik Musiqili Teatrda uşaqların bayramı münasibətilə sərgi və tamaşa

1 iyun – Beynəlxalq Uşaqların Müdafiəsi Günü münasibətilə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Azərbaycana Birgə Yardım Təşkilatının (UAFA) layihəsi əsasında yaradıcı təhsil alan və xüsusi qayğıya ehtiyacı olan (əlilliyi olan) uşaqların "Qarabağ" mövzusunda sərgisi keçiriləcək.



Sərginin ideya müəllifi Akademik Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, kuratoru teatrın baş rəssamı Vüsal Rəhimdir.

Sərginin sonunda layihədə iştirak edən uşaqlara teatr tərəfindən həvəsləndirici diplomlar veriləcək.

Daha sonra sərgi iştirakçıları librettosu və quruluşu rejissor Zəhra Quliyevaya aid olan "Qırmızıpapaq və Redmüzi" müziklini izləyəcəklər.

Akademik Musiqili Teatr balaca tamaşaçıları sərgiyə və həmin gün saat 12:00 və 14:00-da nümayiş olunacaq "Qırmızıpapaq və Redmüzi" müziklinə baxmağa dəvət edir.

# Bölgələrdə mədəniyyət işçilərinin peşəkarlıq və təşəbbüskarlığının artırılması günün tələbidir

əvvəli səh. 1-də

Rayonun Kəhrizli kəndinə gələn nazir burada görkəmli yazıçı-dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin həyat və amal yoldaşı Həmidə xanım Cavanşir-Məmmədquluzadənin (1873-1955) ev-muzeyində olub. Qeyd edilib ki, ev-muzey onun mənsub olduğu ocağa – Cavanşirlər nəslinə məxsus tarixi binada yerləşir. Bu bina Həmidə xanımın vəfatından sonra əvvəlcə orta məktəb, sonra musiqi məktəbi kimi fəaliyyət göstərib. 2005-ci ildən Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyinin filialı statusunda Həmidə Məmmədquluzadənin Ev-Muzeyinə çevrilib.

Muzeydə Həmidə xanımın atası, Qarabağ xanlığının və Şuşa şəhərinin əsasını qoyan Pənahəli xanın nəticəsi tarixçi, şair Əhməd bəy Cavanşirin (1828-1903) tərcümeyi-hal sənədləri, nadir fotoları və əlyazmaları qorunub saxlanılır. Muzeydə eyni zamanda Həmidə xanımla əlaqəli çoxsaylı şəkillər, məktublar, xatirə əşyaları və nadir əl işləri nümayiş etdirilir.

Anar Kərimov Üzeyir Hacıbəyli adına Ağcabədi şəhər Uşaq incəsənət məktəbinin fəaliyyəti ilə də yaxından maraqlanıb. Qeyd edilib ki, 1965-ci ildə Uşaq musiqi məktəbi kimi fəaliyyətə başlayan təhsil ocağı 1986-cı ildən Üzeyir Hacıbəyli adına Uşaq incəsənət məktəbi kimi işini davam etdirir. Hazırda məktəbdə 8 ixtisas üzrə (fortepiano, tar, qarmon, kamança, nağara, xanəndəlik, rəssamlıq, xoreoqrafiya) 121 müəllim 354 şagirdin təhsili ilə məşğul olur.





Ağcabədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasına baxış keçirən nazir müəssisədə fəaliyyətin təşkili ilə maraqlanıb. Sonra həmin binada fəaliyyət göstərən Ağcabədi Dövlət Rəsm Qalereyası ilə tanışlıq olub.

Ağcabədi şəhər Üzeyir Hacıbəyli adına Qarabağ Muğam Mərkəzinə gələn nazirə məlumat verilib ki, mərkəzin qış və yay konsert zalları mövcuddur. 50 şagirdin təhsil aldığı mədəniyyət ocağında 24 nəfər müəllim səs və tar ixtisasları üzrə tədris aparır.

Səfər çərçivəsində mədəniyyət naziri Ağcabədi şəhərindəki yerli əhəmiyyətli memarlıq abidəsi olan məscidə, parkda yerləşən II Dünya müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsinə baş çəkib. Anar Kərimov həmin parkda dəfn edilmiş 44 günlük Vətən müharibəsi şəhidlərinin məzarlarını da ziyarət edib, üzərinə tər çiçəklər düzüb.

Sonra Yaqub Məmmədov adına Ağcabədi rayon Mədəniyyət Mərkəzində Anar Kərimovun Ağcabədi, Ağdam və Laçın rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri ilə görüşü keçirilib. Görüşdə nazirliyin məsul əməkdaşları da iştirak ediblər.

Nazir çıxış edərək bildirib ki, bölgəyə səfərinin əsas məqsədi mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmaq, mövcud imkanları müəyyənləşdirmək, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən şəxsləri nazirliyin prioritetləri və qarşıya qoyulan məqsədləri barədə yerində məlumatlandırmaqdır. Eyni zamanda həmin şəxslərin nazirlik tərəfindən aparılan islahatlara birbaşa cəlb edilərək mədəniyyət sahəsinin inkişafına töhfə verməsi də əsas məqsədlərdəndir.

Anar Kərimov Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun işğaldan azad etdiyi ərazilərdə geniş bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, azad olunmuş ərazilərdə eyni zamanda genişmiqyaslı mədəni quruculuq işləri aparılır: "Mədəni zənginliklər diyarı olan əzəli yurd yerlərimizə mədəniyyətin geri qaytarılması prosesi bizləri sevindirir. Bu istiqamətdə həyata keçirilən layihələrə Mədəniyyət Nazirliyi də öz töhfəsini verməyə çalışır. Ölkəmizin mədəniyyət ictimaiyyəti də bu prosesdə, təbliğat-təşviqat işlərində yaxından iştirak etməlidir".

Görüş zamanı regionun mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib.

Anar Kərimov bölgələrdə mədəniyyət işçiləri arasında peşəkarlıq səviyyəsinin, təşəbbüskarlığın artırılmasının çağımızın vacib tələbi olduğunu diqqətə çatdırıb.

Nazir çıxışının sonunda problemlərin aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.



# "Zəfər tarixi" – xeyriyyə konserti

## Musiqi gecəsi incəsənət ustaları ilə qazilərin maraqlı dueti kimi yaddaşlara yazıldı

Mayın 27-də Heydər Əliyev Sarayında Gənclər və İdman Nazirliyinin dəstəyi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Zəfər tarixi" adlı musiqili-bədii gecə keçirildi.

Vətən müharibəsi qazilərinin də səhnəyə çıxdığı, 28 May – Müstəqillik Gününə həsr olunan konsert Dövlət himninin səsləndirilməsi ilə başladı.

İlk olaraq səhnəyə çıxan Əməkdar artist Lalə Məmmədova və qazi Hacıbaba Abdurrahmanov A.Babayevin "Nazəndə sevgilim" mahnısını səsləndirdilər. Araz Fətəliyevin ifasında Azərbaycan xalq mahnısı "Sarı gəlin" tamaşaçıların diqqətini sarayın səhnəsinə daha dərindən bağladı.

Daha sonra qazilərin təqdim etdiyi S.Rüstəmovun "Oxu, tar", xalq mahnısı "Laçın", Hərbi Hava Qüvvələri orkestrinin ifasında qazi-bəstəkar Vüqar Məmmədzadənin "Zəfər marşı", eləcə də saz havaları, milli rəqslərimiz paytaxtımızın baş səhnəsində toplanan minlərlə tamaşaçının sürəkli alqışları ilə qarşılandı. Xanəndə Rəvanə Qurbanova və qazi Məbud Əhmədovun duetində Bəhram Nəsibovun "Qarabağ" mahnısı gecəyə xüsusi bir ovqat bəxş etdi. 25 qazinin çıxış etdiyi musiqili-bədii gecədə həmçinin vətənpərvərlik ruhunda şeirlər səsləndirildi.

Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, A.Zeynallı adına Musiqi Kolleci, C.Hacıyev adına 3 nömrəli Musiqi məktəbi, Bakı Xoreoqrafiya Akademiyasının məzun və tələbləri olan qazilər konsert boyu sənət və vətən anlamını bir ortamda təqdim etdilər. Haqq savaşımızın od-alovundan keçən sənətçiləri S.Rüstəmov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı (baş dirijor – Xalq artisti Ağaverdi Paşayev), Hərbi Hava Qüvvələrinin orkestri (orkestrin rəisi, hərbi dirijor Marif Səlimov) və ADMİU-nun tələbə heyəti böyük şövqlə müşayiət edirdi.

Layihənin rəhbəri və icraçısı Nərmin İsgəndərova, rejissoru Tərlan Rəsulov, məsləhətçi rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyevdir. Böyük sevgi və maraqla qarşılanan musiqili-bədii gecə xeyriyyə məqsədi daşıyırdı və biletlərin satışından əldə olunan vəsait "YAŞAT" Fonduna ianə olunacaq.

**L.Azəri**

# BDU ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu əməkdaşlıq edəcək

## Anlaşma memorandumu imzalanıb

Bakı Dövlət Universiteti (BDU) ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu arasında anlaşma memorandumu imzalanıb.



Bu münasibətlə mayın 27-də BDU-da keçirilən mərasimdə çıxış edən rektor Elçin Babayev qeyd edib ki, davamlı əməkdaşlığın təminatı olacaq memorandum hər iki qurum üçün mühüm əhəmiyyət daşıyır: "Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu dövlət əhəmiyyətli və beynəlxalq miqyaslı proqramlar vasitəsilə maddi və mənəvi dəyərlərimizin mühafizə edilməsi, dünyada tanıdılması, gənc nəslə aşılanması sahəsində böyük təcrübəyə malikdir. İmzalanacaq memorandum çərçivəsində türk xalqlarının mədəni irsinin təbliği, görkəmli şəxsiyyətlərinin yubileylərinin qeyd olunması məqsədilə birgə konfrans, simpozium və sərgilərin keçirilməsi, universitetin sonuncu kurs tələbələri üçün fondda 1-3 aylıq istehsalat təcrübələrinin təşkili, Türk dünyasına mühüm töhfələr verən tədqiqat işlərinin aparılmasında fərqlənən tələbələrə təqaüdün ayrılması, BDU-da fondun dəstəyi ilə "Türk dünyası elmi araşdırmalar mərkəzi"nin yaradılması və digər əməkdaşlıq istiqamətləri nəzərdə tutulur".

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva da memorandumun rəhbərlik etdiyi qurum üçün əhəmiyyətini qeyd edib: "Fondun əsas fəaliyyət istiqamətlərindən biri də təhsildir. Müxtəlif universitetlərdə Türk dünyası mərkəzləri şəbəkəsi yaratmaq istəyirik. BDU ilə birgə yaradılacaq "Türk dünyası elmi araşdırmalar mərkəzi" də bu məqsədə xidmət edəcək. Fondun əsas məqsədi türk xalqlarını daha da yaxınlaşdırmaq, tariximizi, ədəbiyyat və mədəniyyətimizi təbliğ etməkdir".

Günay Əfəndiyeva qeyd edib ki, fond eyni zamanda Türk dünyası universitetlərinin şəbəkəsini yaratmağa çalışır.

Daha sonra iki qurum arasında anlaşma memorandumu imzalanıb. Sənədi BDU-nun rektoru Elçin Babayev və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva imzalayıblar.

Sonda qarşılıqlı olaraq xatirə hədiyyələri təqdim edilib.

# "Azərbaycan düşüncə tarixi" Türkiyə türkcəsində

## Kitab ictimai-mədəni və ədəbi fikrimizin görkəmli simalarının tanıdılması məqsədi daşıyır

əvvəli səh. 1-də

Təqdimat mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirdi ki, ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı iki ölkə arasında əbədi dostluğun və qardaşlığın strateji yol xəritəsidir. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda ən yüksək müttəfiqlik səviyyəsinə çatıb. 2021-ci ilin 15 iyununda azad Şuşada ölkələrimiz arasında imzalanan "Şuşa Bəyannaməsi"nin Türkiyə-Azərbaycan dostluğuna, qardaşlığına, strateji müttəfiqliyinə ucaldılmış ən böyük abidədir.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı Türkiyə və Azərbaycan qardaşlığının "Şuşa Bəyannaməsi" ilə daha da gücləndiyini, iki ölkə arasında tarixi, mədəni, siyasi, ədəbi bağların daha da möhkəmlənməsi üçün ziyalıların üzərinə böyük məsuliyyət düşdüyünü dedi. Bu baxımdan "Azərbaycan düşüncə tarixi" kitabını yüksək qiymətləndirən səfir Türk dünyasının önəmli şəxsiyyətlərinin də Azərbaycanda tanıdılmasının zəruri olduğunu bildirdi.

Təhsil nazirinin müavini Muxtar Məmmədov BDU-da keçirilən I Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının Türkiyə ilə Azərbaycan arasında yalnız ədəbi, mədəni əlaqələri deyil, eyni zamanda mənəvi, tarixi bağları daha da möhkəmləndirdiyini qeyd etdi.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank "Azərbaycan düşüncə tarixi" kitabının təqdimatında iştirak etməkdən məmnunluq duyduğunu vurğuladı. Təqdimatın Bakıda keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalı günlərinə təsadüf etdiyini qeyd edən nazir bildirdi ki, müasir dövrdə siyasət, iqtisadiyyat, təhsil, mədəniyyət və bir çox sahələrdə birlikdə addımlamağımız qardaşlığımızın göstəricisidir.



Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları İdarəsinin (YTB) rəhbəri Abdullah Eren idarə tərəfindən hazırlanan və 2 clddən ibarət "Azərbaycan düşüncə tarixi" kitabının iki qardaş ölkənin gənclərinin tariximizi daha dərindən öyrənməsi və təbliği baxımından əhəmiyyətini qeyd etdi.

Karabürk Univesitetinin professoru, kitabın redaktoru və həmmüəllifi Ələsgər Ələsgərli nəşr haqqında ətraflı söz açdı. Bildirdi ki, bütün Türk dünyası "Azərbaycan düşüncə tarixi"ndən xəbərdar olmalı və ondan bəhrələnməlidir. Kitab da bu niyyətlə ərsəyə gətirilib.

Rəsmi hissədən sonra təqdimat panel iclasla davam etdi. Kitabda məqalələri yer alan müəlliflərdən AMEA Milli Azərbaycan Tarixi Muzeyinin icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarov və tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədovanın çıxışları dinlənildi.

Qeyd edək ki, "Azərbaycan düşüncə tarixi" kitabında Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Mirzə Bala Məhəmmədzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir Hacıbəyli, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Əhməd Cavad, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Cəfər Cabbarlı, Hüseyn Cavid kimi şəxsiyyətlərin düşüncə dünyaları, tarixi xidmətləri maraqlı detallarla oxuculara çatdırılır.

Kitaba Türkiyə mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy tərəfindən ön söz yazılıb.

**Lalə**

# Beynəlxalq Türk Akademiyasının Qarabağ haqqında kitab-albomunun təqdimatı

BDU-da keçirilən Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı çərçivəsində Beynəlxalq Türk Akademiyasının (BTA, mənzil-qərargahı Nur Sultan şəhərində yerləşir) qazax dilində nəşr etdiyi "Qarabağ: Azərbaycanın incisi – tarixi, mədəniyyəti, təbiəti" kitab-albomunun təqdimatı keçirilib.

BTA-nın vitse-prezidenti Füzuli Məcidli tədbirin məqsədi və kitab-albom barədə məlumat verib. O, ilk dəfə bir beynəlxalq təşkilat tərəfindən Qarabağla bağlı fundamental nəşr ərsəyə gətirdiyini diqqətə çatdırıb.

Tədbirdə AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, Azərbaycan Yazıçılar



Birliyinin sədr müavini Rəşad Məcid, qazaxıstanlı şair Gülnaz Fayzulla və digər qonaqlar çıxış ediblər.

Tədbirin sonunda iştirakçılar BTA-nın nəşrlərinin sərgiləndiyi stendlə tanış olublar.

# Tələbələrin Qara Qarayevin xatirəsinə musiqi töhfəsi

Bu il dünya şöhrətli Azərbaycan bəstəkarı, pedaqoq, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Qara Qarayevin (1918-1982) vəfatının (13 may) 40-cı ilidir.

Mayın 27-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) Tələbə kamera orkestrinin Qara Qarayevin xatirəsinə həsr olunmuş konserti keçirildi.



Gecədə ADMİU-nun rektoru, professor Ceyran Mahmudova, incəsənət xadimləri, digər qonaqlar iştirak edirdilər.

Tədbirdə çıxış edən musiqişünas Sara Timurova Qara Qarayevin Azərbaycan musiqi mədəniyyətinin inkişafında müstəsna rolundan söhbət açdı. Bildirdi ki, görkəmli bəstəkarın zəngin yaradıcılığının dərinliklərinə getdikcə yeni çalarlar, yeni sənətkarlıq məziyyətləri aşkara çıxır.

Daha sonra söz musiqiyə verildi. İlk olaraq orkestrin (bədii rəhbər Süleyman Babakişizadə) ifasında Qara Qarayevin "Klassik süita"sı səsləndirildi.

Daha sonra bəstəkarın "Simli alətlər üçün kvartettino"su (Bakıda ilk ifa) təqdim edildi. Musiqi axşamına Azər Dadaşovun "3 nömrəli simfoniya"sı ilə yekun vuruldu.

Bütün ifalar alqışlarla qarşılandı.

**Nurəddin**

# Xalq Cümhuriyyəti – tariximizin parlaq səhifəsi



28 May – Müstəqillik Günü, ilk Cümhuriyyətimizin 104 yaşı bu il daha böyük coşqu ilə qeyd olundu. Bölgələrdəki mədəniyyət müəssisələrində də müxtəlif tədbirlər keçirildi, tariximizin Cümhuriyyət salnaməsi yenidən vərəqləndi.

Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ) Kürdəmir rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 28 May – Müstəqillik Gününə həsr olunmuş "Od ürəkli, od nəfəsli diyarım" adlı tədbir keçirilib. Mədəniyyət Mərkəzinin bədii özfəaliyyət kollektivləri və Uşaq incəsənət məktəbinin şagirdləri tərəfindən təqdim edilən konsert proqramı alqışlarla qarşılanıb.

***

Gəncə RMİ Gəncə şəhər Heydər Əliyev Mərkəzi və MKS-nin 16 nömrəli kitabxana filialı "Tariximizin ən şanlı və parlaq səhifəsi" mövzusunda tədbir keçirib. Tədbirdə Gəncə şəhər 13 nömrəli tam orta məktəbin şagirdləri bədii kompozisiya ilə çıxış ediblər.

Regional idarənin tabeliyində fəaliyyət göstərən bir sıra mədəniyyət müəssisələrində də əlamətdar günlə bağlı tədbirlər təşkil olunub.

***

Sumqayıt RMİ-nin tabeliyindəki Sumqayıt şəhəri Q.Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbi "28 May" Mədəniyyət evində Müstəqillik Gününə həsr olunan "Şuşalı yurdum" adlı hesabat konserti keçirib. Konsertdə məktəbin şagirdlərindən ibarət xor kollektivi və uşaq ansamblı maraqlı və rəngarəng musiqilərlə çıxış ediblər. Konsertdən sonra çıxış edən idarə rəisi Rəşad Əliyev 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən söhbət açıb.

Sumqayıt şəhər MKS-nin Mərkəzi Uşaq Kitabxanası və 1 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "Dövlətçilik tariximizin şərəfli səhifəsi" adlı oxucu konfransı keçirilib.

***

İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev Mərkəzində "Müstəqilliyimiz əbədidir" mövzusunda məktəblilər arasında inşa yazı müsabiqəsi keçirilib. Müsabiqədə ümumtəhsil məktəblərinin 30-a yaxın şagirdi iştirak edib.

***

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə mərkəzin direktoru Rəna Hacızadə və digər qonaqlar çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və dövlətçilik tariximizdə qoyduğu izdən söz açıblar.

Şirvan şəhər Uşaq musiqi məktəbində Müstəqillik Gününə həsr olunmuş hesabat konserti keçirilib.



Şirvan Şəhər Tarix-Diyarşünaslıq Muzeyində "İnsanlara hürriyyət, millətlərə istiqlal" adlı məktəblərarası bilik yarışı keçirilib. Yarışda 2, 5, 9, 11 və 16 nömrəli məktəblərin şagirdləri iştirak ediblər.

***





Lənkəran RMİ-nin təşkilatçılığı ilə şəhərin Mədəniyyət Mərkəzində "Müstəqilliyimizin Şuşa zirvəsi" adlı tədbir keçirilib. Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov qeyd edib ki, Müstəqillik Günü şanlı tariximizə qızıl hərflərlə həkk olunmuş, hər bir azərbaycanlının qürur mənbəyi olan gündür. Daha sonra tədbir bədii hissə ilə davam edib. Sonda iştirakçılar Mədəniyyət Mərkəzi rəssamlıq dərnəyi üzvlərinin vətənpərvərlik mövzusunda rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

***

Bərdə RMİ Bərdə şəhər 1 nömrəli Uşaq incəsənət məktəbində "Vətənim Azərbaycan" adlı solo konsert keçirilib. Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından və fəaliyyəti dövründə görülən işlərdən söz



açıb. Konsertdə Uşaq incəsənət məktəbinin II sinif şagirdi Nuray Əlisoyun ifasında rəngarəng musiqi nömrələri səsləndirilib.

***

Şəki RMİ Şəki şəhər Heydər Əliyev Mərkəzində Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib. Şəki şəhər Uşaq incəsənət məktəbinin konsert proqramı maraqla qarşılanıb.

Zaqatala rayon Heydər Əliyev Mərkəzində keçirilən elmi-praktik konfransda Müstəqillik Gününə həsr olunan film nümayiş etdirilib.

***

Ağcabədi RMİ Ağdam rayon Cabbar Qaryağdıoğlu adına 1 saylı Uşaq musiqi məktəbində Müstəqillik Günü münasibətilə konsert proqramı təşkil olunub. Konsertdə məktəbin müəllim və şagirdlərinin ifasında musiqi nömrələri və şeirlər səsləndirilib.

***

Şəmkir RMİ Daşkəsən rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Tariximizin parlaq səhifəsi" adlı tədbir keçirilib. Tədbirdə Müstəqillik Gününə həsr olunmuş sərgi nümayiş etdirilib.

***

Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzində "Müstəqillik Günü Azərbaycan tarixinin şanlı, parlaq səhifəsidir" adlı tədbir keçirilib.

# Sizin gününüzdür, uşaqlar!

1 iyun Beynəlxalq Uşaqların Müdafiəsi Günüdür. 1949-cu ildə Beynəlxalq Demokratik Qadınlar Federasiyasının Parisdə keçirilən konqresində təsis olunan gün 1950-ci ildən dünya miqyasında qeyd olunur. Əlamətdar günlə bağlı ölkəmizdə də hər il müxtəlif tədbirlər keçirilir.

Ağstafa RMİ Qazax rayon Mədəniyyət Mərkəzi və MKS-nin birgə təşkilatçılığı ilə şəhid övladları ilə "Biz dünyaya bəzəyik" adlı görüş təşkil olunub.

***

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən rəsm dərnəyi şagirdlərinin uşaqların bayramı münasibətilə əl işlərindən ibarət sərgi təşkil olunub.

***

Sumqayıt RMİ Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidlərinin övladlarının iştirakı ilə "Bu gün sizin gününüzdür, uşaqlar!" adlı tədbir keçirilib. Tədbir S.Vurğun adına Mərkəzi Kitabxananın Uşaq şöbəsi, 2 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Sumqayıt şəhər komitəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib. Kitabxananın Uşaq şöbəsinin müdiri Yeganə Hüseynova və digər çıxış edənlər əlamətdar gün haqqında məlumat verib, ölkəmizdə şəhid övladlarına göstərilən diqqət və qayğıdan bəhs ediblər.

# MEMİM-in təşkilatçılığı ilə Gəncədə ustad dərsləri



Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı ilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Rauf Hacıyev adına 15 nömrəli onbirillik Musiqi məktəbinin müəllimləri mayın 27-də Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyindəki Zərif Qayıbov adına 5 nömrəli Musiqi məktəbində tar, kamança, vokal və fortepiano ixtisasları üzrə ustad dərsləri keçiblər.

Dərslər Mədəniyyət Nazirliyinin "Uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə Fəaliyyət Planı"na uyğun olaraq təşkil edilib.

Musiqi məktəbinin müəllimi, Əməkdar mədəniyyət işçisi Tamilla Məmmədovanın fortepiano ixtisası üzrə keçirdiyi ustad dərsi görkəmli bəstəkar Rauf Hacıyevin 100 illiyinə həsr olunub. XX əsr Azərbaycan musiqi mədəniyyətinə mühüm töhfələr vermiş Rauf Hacıyevin çoxşaxəli yaradıcılığından danışan müəllim dərs prosesində bəstəkarın uşaq musiqi məktəblərində tədris olunan əsərlərini təhlil edib.

Növbəti ustad dərsi vokal ixtisası üzrə aparılıb. Mehriban Hüseynovanın apardığı dərs Azərbaycanın dünya şöhrətli bəstəkarı Fikrət Əmirovun 100 illiyinə həsr olunub. Dərs prosesində bəstəkarın vokal yaradıcılığından bəhs edən müəllim mahnı və romanslarda obraz, mövzu, faktura tipi və harmonik dilin zənginliyindən danışıb. Bildirib ki, F.Əmirovun əsərləri öz əlvanlığı, orijinallığı və xəlqiliyi ilə Azərbaycan musiqi xəzinəsini zənginləşdirib.

Fərid Quliyevin tar ixtisası üzrə ustad dərsi isə məşhur şairə Xurşidbanu Natəvana həsr olunub. Müəllim şagirdlərə Natəvan haqqında geniş məlumat verib və xüsusi olaraq diqqətə çatdırılıb ki, bu il Azərbaycan Prezidentinin sərəncamı ilə şairənin anadan olmasının 190 illiyi ölkəmizdə geniş şəkildə qeyd edilir.

Svetlana Əliyevanın kamança ixtisası üzrə ustad dərsində Azərbaycan Dövlət Himninin mətninin müəllifi, istiqlal şairi Əhməd Cavadın həyat və yaradıcılığından bəhs olunub. Diqqətə çatdırılıb ki, bu il Əhməd Cavadın anadan olmasının 130 illiyidir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ədibin yubileyinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Rauf Hacıyev adına 15 nömrəli Musiqi məktəbinin direktoru Sevil Ələkbərova bildirib ki, ustad dərslərinin keçirilməsində məqsəd məktəblərdə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin yaradıcılıq bacarıqlarının düzgün istiqamətləndirilməsi, müəllimlərə metodiki köməkliyin göstərilməsindən ibarətdir.

# Mədəniyyət paytaxtımız – Qarabağın incisi



Gəncə RMİ-nin təşəbbüsü və dəstəyi, Gəncə şəhər Uşaq incəsənət məktəbi və Samux rayon Qarayeri qəsəbə Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Qarabağ süitası" adlı musiqili ədəbi-bədii kompozisiya təqdim olunub.

Goranboy rayon MKS-nin Uşaq şöbəsi Heydər Əliyev parkında "Qarabağın incisi – Şuşa" adlı musiqili ədəbi-bədii gecə təşkil edib. Tədbirdə iştirak edən 2 saylı tam orta məktəbin şagirdlərinin ifasında "Şuşa korifeylərini tanıyaq", "Şuşa fatehləri" adlı səhnəciklər, hərbi-vətənpərvərlik ruhunda yazılmış şeirlər, mahnılar, "Xarı bülbül", "Şuşanın dağları", "Qarabağ Azərbaycandır!" adlı rəqs kompozisiyası təqdim olunub.

***

Ağstafa RMİ Qazax rayon Heydər Əliyev Mərkəzində keçirilən "Şuşa bizim milli sərvətimizdir" mövzusunda tədbirdə mədəniyyət paytaxtımız haqqında şeirlər səsləndirilib, ədəbi-bədii kompozisiya təqdim olunub.

***

Xaçmaz RMİ Qusar rayon MKS-nin təşkilatçılığı ilə Qusar şəhər N.Nərimanov adına Mərkəzi parkda "Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir" adlı tədbir keçirilib. Tədbirdə



kitabxanaçılar, fəal oxucular və mədəniyyət işçilərinin iştirakı ilə ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

***

Ağdaş RMİ-nin təşkilatçılığı ilə "Şuşa, sən azadsan!" adlı ümumrayon tədbiri keçirilib.



Ağdaş Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İsmayıl Yusifzadə və Ağdaş RMİ-nin rəisi Səxavət Məmmədovun da iştirak etdiyi tədbirdə şəhər Uşaq musiqi məktəbinin müəllimlərindən ibarət ansamblın və Ağdaş rayon Pirəzə kənd Folklor evinin "Teşti" kollektivinin ifaları, milli mətbəx və xalçaçılıq nümunələri, Mingəçevir Dövlət Dram Teatrı aktyorlarının ifasında Xurşidbanu Natəvanla Aleksandr Dümanın görüş səhnəsindən ibarət kompozisiya nümayiş etdirilib.

***

Şəki RMİ Balakən rayon Uşaq incəsənət məktəbində "Şuşa, sən azadsan!" adlı konsert proqramı keçirilib. Konsertdə Şəki RMİ-nin rəisi vəzifəsini icra edən Tərlan Nəsibov çıxış edib.

**Hazırladı: N.Məmmədli**

# Mərkəzi İncəsənət Məktəbinin kollektivi Masallı və Cəlilabadda

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi (MİM) tərəfindən 26-27 may tarixlərində Masallı rayonunda "Şuşa İli" çərçivəsində konsert proqramı və ustad dərsləri keçirilib.

Mayın 26-da Masallı şəhər onbirillik İncəsənət məktəbində və Cəlilabad rayon Uşaq incəsənət məktəbində Mərkəzi İncəsənət Məktəbinin tədris işləri üzrə direktor müavini Mənsurə Quliyeva (fortepiano) və müəllimlər Nurlan Cəfərli (tar), Becan Hüseynov (qarmon), Türkay Məlikova (xanəndə) tərəfindən ustad dərsləri keçirilib.

Masallı şəhər onbirillik İncəsənət məktəbində keçirilən ustad dərslərində Yardımlı rayon Uşaq incəsənət məktəbinin müəllim və şagird kollektivi də iştirak edib.

Ustad dərsləri kollektivlər tərəfindən maraqla qarşılanıb.

Mayın 27-də Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində Mərkəzi İncəsənət Məktəbinin "Şuşa İli" münasibətilə konsert proqramı keçirilib.



Masallı Regional Mədəniyyət İdarəsinin (RMİ) rəisi Bəxtiyar Qılıncov qarşılıqlı əməkdaşlığa görə MİM-in direktoru, Əməkdar artist Əziz Qarayusifliyə minnətdarlığını bildirib, idarənin adından hədiyyə təqdim edib. Əziz Qarayusifli göstərilən qonaqpərvərliyə görə RMİ-nin rəhbərliyinə, Masallı rayon Mədəniyyət Mərkəzinin kollektivinə və tədbir iştirakçılarına təşəkkür edib.

# Şuşada bayram konserti



"Şuşa İli" tədbirləri çərçivəsində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə mayın 27-də Şuşa şəhərində konsert proqramı təqdim olunub.

28 May – Müstəqillik Gününə həsr olunan konsertdə Əməkdar artist, əslən şuşalı olan Fuad İbrahimovun dirijorluğu ilə "Baku Chamber Orchestra" və solistlər, "Naz-nazı" muğam qrupu çıxış edib.

Şuşada xidmət edən hərbçilərimiz üçün nəzərdə tutulan bayram tədbirində, həmçinin BMA-nın prorektorları – Əməkdar müəllim, professor Nərminə Quliyeva, Xalq artisti, professor Yeganə Axundova, eləcə də mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Konsertin solistləri Xalq artisti, BMA-nın professoru Gülnaz İsmayılova (vokal), Xalq artisti Malik Mansurov (tarzən), Əməkdar artist Anar Şuşalı (vokal), Cəlal Kərimov (vokal), beynəlxalq müsabiqələr laureatı Nəzrin Aslanlı, televiziya muğam müsabiqələrinin iştirakçıları və qalibləri Gülnar Qüdrətli, Nüşabə Kərimli, Günay İmamverdiyeva, Mirəli Sarızadə olub.

Proqramda Ü.Hacıbəylinin "Arazbarı", F.Əmirovun "1001 gecə" baletindən "Şəhrizadın bayramı", A.Məlikovun "İki qəlbin dastanı" baletindən "Komdenin arzuları", Q.Qarayevin "İldırımlı yollarla" baletindən rəqs, Niyazinin "Qaytağı" simfonik əsəri və "Arzu" romansı, C.Cahangirovun "Teymurun nəğməsi", V.Adıgözəlovun "Qərənfil", S. Ələsgərovun "Vətənimdir", C.Cahangirovun "Qarabağ", E.İbrahimovanın "Şuşa" mahnıları, Niyazinin işləməsində "Qaragilə" xalq mahnısı, eləcə də "Sarı bülbül", "Qoy gülüm gəlsin" xalq mahnıları, "Şahnaz" təsnifi, "Qarabağ şikəstəsi" yer alıb.

Proqramın başa çatmasına az qalmış musiqiçilərin hərarətli milli rəqs melodiyaları ilə tamaşaçıları rəqsə dəvət etməsi bayram tədbirinə xüsusi rəng qatıb. Bayram konserti tamaşaçıların ayaq üstə alqışlarla qarşıladığı M.Maqomayevin "Azərbaycan" mahnısı ilə başa çatıb.

# Rostropoviçlərin ev-muzeyində Firəngiz Əlizadənin yubileyi qeyd edilib

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyində Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadənin 75 illiyi təntənəli şəkildə qeyd olunub.

Muzeyin icraçı rəhbəri Günay Əliyeva, Əməkdar incəsənət xadimi, musiqişünas Zemfira Qafarova çıxış edərək bəstəkarı yubiley münasibətilə təbrik edib, onun Azərbaycan musiqi mədəniyyətinə verdiyi əvəzsiz töhfələrdən söz açıblar.

"Azərbaycan dünyası" jurnalının təsisçisi, "Dədə Qorqud" milli fondunun rəhbəri Eldar İsmayılov yubilyar bəstəkarı fondun "Mehriban ana" ordeni ilə təltif edib.

Sonra konsert proqramı təqdim edilib. Prezident təqaüdçüləri, beynəlxalq və respublika miqyaslı müsabiqələr laureatları



Ş.Ağazadə, Ş.Rəsulova, N.Həsənli, A.Rüstəmzadə Rostropoviçlərin ev-muzeyinin əməkdaşı, Prezident təqaüdçüsü, bəstəkar Vüqar Məmmədzadənin "Kvartet üçün yazılmış əsər"ini, Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının şagirdləri – beynəlxalq müsabiqə laureatları Nuranə Salamova və Fərid Zeynalov Q.Qarayevin "Prelüd", K.Debussinin "Sevinc adası", X.Zeynalovanın "Qarabağ süitası", F.Şopenin "Etüd", F.Sayın "Kara toprak" əsərlərini ifa ediblər.

Tədbirdə Paris şəhərində keçirilmiş M.Rostropoviç adına violonçel müsabiqəsindən, M.Rostropoviçin Azərbaycan Dövlət Akademik Filarmoniyasında F.Əlizadənin "İthaf" əsərinə dirijorluq etdiyi konsertdən görüntülərin olduğu qısa film nümayiş olunub.

Qonaqlar muzeyin fondunda F.Əlizadənin yaradıcılığı ilə bağlı olan eksponatların ("İntizar" operasının bukleti, "Habilsayağı" əsərinin notları və proqramı, "Kronos - Quartet" ansamblının ifasında "Muğamsayağı" operasının diski, afişa və s.) yer aldığı "İnci bəstələr" adlı sərgi ilə tanış olublar.

Göstərilən diqqətə görə minnətdarlığını bildirən Firəngiz Əlizadə Rostropoviçlərin ev-muzeyinin onun üçün xüsusi bir məkan olduğunu söyləyib: "Biz fəxr edirik ki, belə bir dahi məhz Bakıda dünyaya gəlib. Ölkəmizə gələn bütün görkəmli musiqiçilər M.Rostropoviçin doğulduğu bu evi ziyarət edirlər. İnanıram ki, bundan sonra da belə olacaq".

# Buraya gələcəyimi biləndə anam dedi: "Oğlum, Bakıya mənim gözlərimlə də bax!"

## Dmitri Sitkovetski: "İfaçı sənətini sevməli və onu təkcə çörək ağacı hesab etməməlidir"

Əslən Bakıdan olan, hazırda Londonda yaşayan dünya şöhrətli skripka ifaçısı, dirijor Dmitri Sitkovetski bu günlərdə paytaxtımızın qonağı oldu. Mədəniyyət Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə 15-20 may tarixində Bakıda "Dmitri Sitkovetski ilə görüşlər" adlı silsilə tədbirlər keçirildi.



Musiqiçi ilə görüşlər yaddaşlara unudulmaz məqamlarla yazıldı. Dmitri Sitkovetski ilə görüşlər bitsə də, təəssüratlar və yaranan əlaqələr qarşıda əməkdaşlıq üçün yeni üfüqlərin olduğunu göstərdi. Ustad dərsləri və mühazirələrdə gənclərin iştirakı, sənətkarın dəyərli məsləhətləri bizim də diqqətimizi cəlb etdi.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində maestro ilə görüşdə iştirak edib onu dinləməyimiz eyni zamanda musiqi tarixi, Bakının musiqi mühiti ilə bağlı təəssüratlarımızı yeniləmiş oldu.

Həmin gün Dmitri Sitkovetski iştirakçıları skripka ifaçılığının "qızıl dövrü"nə səyahətə dəvət etdi. Avstriya əsilli Amerika bəstəkarı, skripkaçı, XX əsrin ən tanınmış ifaçılarından olan F.Kreysler, Y.Heyfets və Y.Menuxinin sənət şöhrəti haqqında maraqlı məlumatları diqqətə çatdırdı. Həmçinin violin ifaçılarının nadir audioyazılarını səsləndirərək onların ifa texnikalarını müqayisə etdi və Kreyslerin səslənmə gözəlliyi, Heyfetsin texniki mükəmməlliyi, Menuxinin dinamikasından söz açdı...

Görüşdə maestro imkan tapıb suallarımızı da cavablandırdı.

*– Skripka ifaçılarına nələri tövsiyə edərdiniz?*

– Əsas sevgi və qəlbin hərarətidir. İfaçı sənətini sevməli və böyük sevgi ilə yanaşmalıdır. Bir də o alətə təkcə, belə demək mümkünsə, çörək ağacı kimi baxmamalıdır. Musiqi duyumu, müəyyən hazırlıq səviyyəsi də mütləqdir. İfa zamanı texniki məsələlərlə yanaşı, bədii tərəf də həmişə diqqət mərkəzində olmalıdır. Elə bir az əvvəl sizinlə üç dahinin ifalarını dinlədik. Bu ifaları təqdim etməkdə də məqsədim sadaladıqlarımı göstərmək idi. Gənclər texniki baxımdan daha sadə əsərləri mənimsədikdən sonra mürəkkəb əsərlərə keçid etməlidirlər.

*– Tələbəm deyə biləcəyiniz adlar varmı?*

– Kiminləsə fərdi məşğul olmamışam. Sadəcə, istiqamət verdiyim adlar var ki, bu gün onlarla fəxr edirəm. İndi buradayam, sabah başqa bir şəhərdə. Ona görə də mən yalnız istiqamət verib yola düşən müəllimlərdənəm. Bu baxımdan Azərbaycandan dirijor Fuad İbrahimovu misal çəkə bilərəm. Onunla fəxr edirəm.

*– Sevimli bəstəkarlarınız...*

– Çoxdur. İ.S.Bax, S.Prokofyev, D.Şostakoviç, M.Ravel və başqaları. Əsərini ifa etdiyim hər bir bəstəkarı həmin məqamda sevirəm. Bəzən düşünürəm ki, mən bu bəstəkara uyuşa bilmərəm, amma aləti əlimə alıb ifaya başladığım məqamdan həmin bəstəkarı sevməyə başlayıram.

*– Doğulduğunuz şəhərlə əlaqələrinizdən danışardınız...*

– Bakı ilə daim yaradıcılıq əlaqələri saxlayıram. Burada çoxlu musiqiçi dostlarım var. Azərbaycanda təşkil edilən musiqi festivallarının daimi iştirakçısıyam. Elə bu gün sizinlə sağollaşandan sonra Fuad İbrahimovla ulu babalarımın ruhunu yad etmək üçün ailə qəbiristanlığına baş çəkəcəyəm.

*– Mühazirə zamanı ananız, dünya şöhrətli pianoçu Bella Davidoviçin Bakı xatirələrindən də söz açdınız...*

– Anam Bakıda sonuncu dəfə 2001-ci ildə olub. Onun gəncliyi və ən xoş xatirələri Bakı ilə bağlıdır. Hazırda 94 yaşı var və Nyu-Yorkda yaşayır. Bilirsiniz ki, babam – anamın atası M.N.Davidoviç Azərbaycanın görkəmli cərrahı və Əməkdar həkimi olub. Hər gəlişimdə onu da yad edirəm. Anam Bakıya gələcəyimi biləndə mənə dedi: "Oğlum, Bakıya mənim də gözlərimlə bax!". Bu neçə gündə çalışıram ki, ən xoş münasibəti və sevgini buradan anama apara bilim...

*– Uşaqlığınızı necə xatırlayırsınız?*

– Bakıda doğulsam da, Moskvada böyümüşəm. Amma bu günə kimi uşaqlıq illərim, Bakı küçələrindəki gəzintilərim gözlərim önündədir. Mənim üçün ən önəmlisi həmyerlilərimin sevgisini duymaq və onlara qarşılıqlı cavab verməkdir. Yəni bu sevgini qarşılıqlı bölüşmək. Sizə maraqlı bir nüansı deyim. YARAT-da görüşümün mövzusu anamın sənətinə həsr edilmişdi. Anam sanki həmin gün vətənində onun xatırlanmasını hiss edib. Evdə köməkçisi mənə zəng edib dedi ki, uzun illər fasilədən sonra anam həmin gün royalın arxasına keçərək ifa etməyə başlayıb. Ona videozəng edib şəhəri və sevdiyi Xəzəri göstərdim...

*– Sizə yeni yaradıcılıq uğurları arzulayırıq.*

– Mən də bir neçə saatınızı sərf edib məni dinlədiyinizə görə təşəkkür edirəm.

**L.Azəri**

# Musiqi məktəblərinin yaradıcılıq hesabatları





Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 33 nömrəli Musiqi məktəbi "Şuşa İli" və 28 May – Müstəqillik Gününə həsr olunmuş "Cənnətim Qarabağ" adlı hesabat konserti ilə çıxış edib. Konsertdə məktəbin müxtəlif ixtisaslar üzrə şagirdləri Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini səsləndiriblər.

Baş idarənin rəisi İbrahim Əliyev tədbir iştirakçılarını Müstəqillik Günü münasibətilə təbrik edərək məktəbin kollektivinə yeni-yeni nailiyyətlər arzulayıb.

Məktəbin direktoru Nəzifə Əliyeva tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin görmə qüsurlu uşaqlar üçün 38 nömrəli onbirillik Musiqi məktəbi Azərbaycan Dövlət Mahnı Teatrında "Şuşa İli"nə həsr olunmuş konsert proqramı təqdim edib.

Tədbirdə idarənin rəisi İbrahim Əliyev, uşaq musiqi və incəsənət məktəblərinin rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konsertdə məktəblilərdən ibarət xor və ansamblın ifası tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Arif Məlikov adına 11 nömrəli onbirillik Musiqi məktəbinin yaranmasının 65 illiyinə və 28 May – Müstəqillik Gününə həsr olunmuş konsert keçirilib.

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil olunan konsertdə Samir Şahbəddinovun rəhbərliyi altında məktəbin xalq çalğı alətləri orkestrinin müşayiəti ilə şagirdlər F.Əmirov, T.Quliyev, Q.Qarayev, F.List, F.Şopen, V.Monti kimi Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini ifa ediblər.

# Elmi Bərpa Mərkəzində tələbələr üçün istehsalat təcrübəsi

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə IV kurs tələbələri üçün istehsalat təcrübəsi təşkil olunub.

Növbəti təcrübə kursunda bərpaçı-rəssam Cəfər Əliquliyev tələbələrə Azərbaycan rəngkarlığının qədim və zəngin tarixə malik olan əsas növləri, onların bədii-estetik xüsusiyyətləri və bərpası haqqında ətraflı məlumat verib.

Dərs zamanı tələbələrə eksponatın bərpaya daxil olduqdan sonra vizual müayinəsi, kimyəvi və texnoloji analizləri, bərpaçının gündəliyində apardığı qeydləri, eksponata uyğun bərpa material seçilməsi, bioloji, mexaniki zədələnmələrin müəyyənləşdirilməsi, eləcə də tətbiq olunan kimyəvi üsullar ətraflı izah olunub.

İstehsalat təcrübəsi mayın 31-də başa çatıb.

# Milli Dram Teatrında "Zəfər yolu"nun premyerası

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 44 günlük Vətən müharibəsinə həsr olunan "Zəfər yolu" tamaşasının premyerası olub.




Mayın 28-də ilk nümayişi keçirilən tamaşanın müəllifi və quruluşçu rejissoru Xalq artisti Azər Paşa Nemətov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, rejissoru Emil Əsgərov, rejissor assistenti Nərmin Həsənovadır.

Səhnə əsərində Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Əməkdar artistlər Hicran Nəsirova, Elxan Quliyev, Mətanət Atakişiyeva, Mirzə Ağabəyli, Elnar Qarayev, Anar Heybətov, Ayşad Məmmədov, Mətləb Abdullayev, Elşən Rüstəmov, Rəşad Bəxtiyarov, aktyorlar Elçin Əfəndi, Xədicə Novruzlu, Rada Nəsibova, İlahə Həsənova, İlyas Əhmədov, Afət Məmmədova, Aylin Həşimova, Elsevər Rəhimov, Corc Qafarov, Tural İbrahimov, Ramin Şıxəliyev, Elnur Qədirov, Cümşüd Zeynalov, Cavidan Novruz və Vüsal Mustafayev çıxış edirlər.

Dövlət sifarişi ilə hazırlanan tamaşanın premyerasında mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri iştirak ediblər.

# Gənc xanəndənin ilk solo konserti

Beynəlxalq Muğam Mərkəzində (BMM) VI Muğam Televiziya Müsabiqəsinin Qran-pri mükafatçısı, mərkəzin solisti Almaxanım Əhmədlinin solo konserti keçirilib.



28-29 may tarixlərində gerçəkləşən konsert 28 May – Müstəqillik Gününə həsr olunub.

Anşlaqla keçən konsert proqramında rəngarəng repertuar təqdim edən gənc ifaçı muğamlar, xalq və bəstəkar mahnıları, türk musiqisindən nümunələr səsləndirib.

Almaxanım Əhmədli peşəkarlıqla, yüksək duyum və həssaslıqla ifa etdiyi musiqi nömrələri ilə tamaşaçıların könlünü oxşayıb. Xanəndənin qəlblərə xitab edən ifası tamaşaçıların gur alqışları ilə qarşılanıb.

Musiqidə istedadın ən mühüm göstəricilərindən biri də, sözsüz ki, ifaçının oxuduğu əsəri duymasıdır. Gənc solistin muğam musiqisini və xalq mahnılarımızı dərindən, bütün ruhu ilə duyaraq təqdim etməsi onun ilk solo konsertinin uğurlu alınmasında əsas rol oynayıb.

**Lalə**

# Fikrət Əmirov adına "Gənc istedadlar" müsabiqəsi

Fikrət Əmirovun 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı dünya şöhrətli bəstəkarımızın irsini təbliğ, tədqiq və tədris edənlərə bu istiqamətlərdə yeni layihələr həyat keçirmək üçün zəmin oldu. Fikrət Əmirov musiqisi insanlara mənəvi zövq aşılamaqla, mənəvi qida verməklə bahəm, həm də musiqi tədrisi üçün çox əhəmiyyətli yüksək bədii dəyərə malikdir. Balaca musiqiçilər onun əsərlərini ifa etməklə milli irsimizə daha dərindən bağlanırlar. "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin həyata keçirdiyi Fikrət Əmirov adına "Gənc istedadlar" müsabiqəsi də bu məqsədə xidmət edirdi.



Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə realaşan layihə çərçivəsində 25-26 may tarixlərində F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbində keçirilən müsabiqəyə Bakı şəhəri üzrə 9-16 yaş aralığında 60-a yaxın şagird qatılmışdı.

Məktəblilərin çıxışlarını Əməkdar müəllim, professor, F.Əmirov adına məktəbin direktoru Adilə Yusifova (sədr), Əməkdar incəsənət xadimi, professor Telman Hacıyev, Əməkdar müəllim, professor Firəngiz Hacıyeva, Əməkdar artistlər Nuriyyə Hüseynova, Təranə Əliyeva, beynəlxalq müsabiqələr laureatı Nərgiz Kəngərli, Ü.Hacıbəyli adına BMA-nın elmi-tədqiqat laboratoriyasının əməkdaşı Fidan Nəsirova və "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin sədri kimi bu sətirlərin müəllifinin yer aldığı münsiflər heyəti qiymətləndirdi.

Müsabiqədə Qran-pri mükafatını S.Ələsgərov adına 1 nömrəli İncəsənət məktəbinin V sinif şagirdi İnci Həsənli qazandı. Bundan əlavə, F.Əmirov adına 6 nömrəli İncəsənət məktəbi, R.Hacıyev adına 15 saylı Musiqi məktəbi, T.Quliyev adına 12 nömrəli Musiqi məktəbi, Ə.Bakıxanov adına 6 nömrəli Musiqi məktəbi, A.Məlikov adına 11 nömrəli İncəsənət məktəbi və 33 nömrəli Musiqi məktəbini təmsil edən gənc istedadlar müsabiqədə 1-ci (5 nəfər), 2-ci (4 nəfər) və 3-cü (3 nəfər) yerlərə layiq görüldülər. Daha üç şagird fəxri fərmanla təltif olundu.

Onu da qeyd edək ki, müsabiqənin məhz Fikrət Əmirovun adını daşıyan məktəbdə keçirilməsi təsadüfi deyil. Bu il dahi bəstəkarın 100 illiyi ilə bərabər, bu tədris ocağının da 60 yaşı tamam olur. Beləcə, yubileyin yubileyə qarışdığı ildə "Gənc istedadlar" müsabiqəsi də bir tarixə çevrildi. Əminik ki, bu müsabiqə onun iştirakçısı olmuş hər bir şagirdin yaddaşında qalacaq.

Sonda layihənin həyata keçməsinə yaradılan şəraitə görə F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbinin rəhbərliyinə və kollektivinə təşəkkürümüzü bildiririk.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**

№41 (1914)
1 iyun 2022
www.medeniyyet.az

Şuşanın simaları

# Ağabəyim ağa və onun “Vətən bağı”

Tarixdə hökmdar xanımlarının adına ucaldılan xeyli türbə, məscid, salınan bağ və yazılan kitablar var: Naxçıvanda Möminə xatın, Hindistanda Tac Mahal türbələri, Babildə (indiki İraq ərazisi) Semiramidanın asma bağları və s. Möcüzə hesab edilən məkanlardan biri İranda Qacarlar səltənətinin hökmdarı Fətəli şahın xanımı Ağabəyim ağanın adını daşıyan “Vətən bağı”dır...

“Şuşanın simaları” rubrikasında bu dəfə Qarabağ xanı İbrahimxəlil xanın qızı, şairə, diplomat, hicran, nisgil simvolu Ağabəyim ağa haqqında söz açacağıq.

1780-ci ildə Şuşanın Xankəndi kəndində dünyaya göz açan Ağabəyim ağanın əksər hökmdar övladları kimi, təlim-tərbiyəsi və təhsilinə ciddi diqqət yetirilir. Ərəb və fars dillərini mükəmməl öyrənir. Erkən çağlardan poeziyaya maraq göstərir.

İbrahimxəlil xanın müstəqil siyasəti Tehranda Qacarlar sarayında birmənalı qarşılanmır. Ağa Məhəmməd şah Qacar xanı itaətə dəvət edir. Ancaq müsbət cavab almır. Buna görə də 1797-ci ildə ikinci dəfə (birinci hücum 1795-ci ildə olmuşdu) Qarabağa hücum edir. Saraydan çıxmamış deyir ki, əgər bu səfərdən geri dönməsəm, qardaşım oğlu Fətəli məni əvəz edər. O, həmin il Şuşa şəhərində qətlə yetirilir. Şahın qardaşı oğlu Fətəli Qacar xanədanın şahı elan edilir. İbrahimxəlil xan Fətəli



şahın şərtlərini qəbul edir. Şah “hər iki tərəfin xatircəmliyi üçün” İbrahimxəlil xandan qızı Ağabəyim ağanı hərəmxanasına göndərməsini istəyir. Xan bu nikaha razılıq verir. Sevimli qızını Qacar xanədanının hökmdarı Fətəli şaha ərə verir. 1801-ci ildə xidmətçiləri ilə birlikdə Tehrana göndərir.

Deyilənlərə görə, Ağabəyim ağa saraya daxil olarkən Fətəli şahın qarşısında baş əymir. Ona şahın hüzurunda olduğunu xatırladırlar. O, “Elə mən özüm də şah qızıyam” deyir.

Ağabəyim ağa qısa zamanda biliyi, bacarığı ilə sarayda hörmət qazanır. Ancaq taleyi ilə heç cür barışmır. Danışıb gülsə də, könlü açılmır. Vətən həsrəti ilə şeirlər yazır. Fətəli şah onu həddən artıq sevir. Ancaq Ağabəyim ağa toz-torpaqlı Tehranda Qarabağın təmiz hava və yarpaq xışıltısına həsrət qalır. Bunu şah da hiss edir. Həqiqi aşiq, vəfalı hökmdar kimi onun könlünün açılması, üzünün gülməsi üçün Qarabağın zümrüd meşələrinin ətrini Tehran şəhərinin mərkəzinə gətirir. Şuşanın əsrarəngiz təbiətinin gül və çiçəklərindən “Vətən bağı” adlı bir bağ saldırır. Ağabəyim ağa gəzintiyə çıxarkən Şuşanı xatırlayır. Dərindən bir ah çəkir və doluxsunur. Onu müşayiət edən saray xidmətçiləri bu həyəcana təəccüb edirlər. Ağabəyim ağa sonra yazır:

*“Vətən bağı” al-əlvandır,*
*Yox üstündə xarıbülbül.*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı sarı, bülbül.*

Belə deyirlər ki, “Vətən bağı”nda xarıbülbül gülü təkrar-təkrar əkilsə də, bitmir. Şah səbəbini soruşur. Deyirlər ki, bu gül sərin təbiət bitkisidir. Çox istidə inkişaf etmir...

Ağabəyim ağa hara getsə, böyük hörmətlə qarşılanır və sevilir. Hətta sarayda “Şahbanu” ləqəbi ilə tanınır. İranın siyasi-mədəni həyatı ilə maraqlanan ilk qadın hesab edilir. Tarixçilər Fətəli şahın şahlıq dövründən, saray münaqişələrindən bəhs edərkən Ağabəyim ağanın da adını çəkirlər. Qeyd edilir ki, Ağabəyim ağa gözəl olmaqla bərabər, savadlı, bacarıqlı və vətənpərvər bir qadın olub. Şah bunu yaxşı bildiyi üçün bəzi ciddi dövlət işlərində onu da dinləyib. Ağabəyim ağa sarayda ingilis və fransız dillərini öyrənir. Saraya gələn əcnəbi səyyah və diplomatlarla söhbətlərdə iştirak edir. 1811-ci ildə Fransa imperatorunun arvadı ilə görüşür. Eyni zamanda Rusiya çarı I Aleksandrın xanımı ilə də məktublaşır. Rusiya çariçası Ağabəyim xanıma bu məzmunda məktub göndərir: “Ey bəyim, siz öz müdrikliyinizlə mərhəmətli şahın ikinci zöhrəsi, tale ulduzu olmuşsunuz...”.

Araşdırmalarda qeyd edilir ki, Ağabəyim ağa İrəvan xanının qardaşı “Sarı Aslan” ləqəbli yüzbaşı Həsən xanın rus əsirliyindən qurtarılması üçün də böyük səy göstərib. Mənbədə göstərilir ki, 1812-ci ildə İngiltərə səfiri Qor Ouzli İranda danışıqlar aparır. Səfirin xanımı da ölkənin birinci xanımı ilə görüşmək istəyir. Həmin görüşü ingilis səyyah-diplomatı Ceyms Moriyer belə təsvir edir: “Kraliça Ağabacının taxtda oturduğu böyük bir saraya girməsi üçün səfirin qadınına bələdçilik etdilər. Onun əynindəki geyim Qacar dövlətinin ehtişamını göstərirdi. Kraliçanın əynindəki paltarların qızıl düymələri parıldayırdı. Kraliçanın üzərində o qədər qızıl, ləl-cavahirat var idi ki, o, sərbəst hərəkət edə bilmirdi”. Saraydakı görüşdə səfirin xanımı Ağabəyim ağaya İngiltərə kraliçası adından qiymətli ətir hədiyyə edir.

Mənbələrdə Ağabəyim ağanın “Tuti” təxəllüsü ilə şeirlər yazdığı da bildirilir. Onun farsca şeirləri “Divani-Baci” adı ilə tanınır. Hətta qeyd olunur ki, “Qarabağ şikəstəsi”nin də müəllifi məhz Ağabəyim ağadır. Onun günümüzə gəlib çatan Vətən həsrətli bir bayatısında deyilir:

*Əziziyəm, Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ.*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ!*

Ağabəyim ağa həm də ağırtəbiətli insan kimi saray söz-söhbətlərindən uzaq olsun deyə çox vaxt imamzadə Qasım məqbərəsindəki hücrəsində tənha qalıb. İllər sonra atası İbrahimxəlil xanın və ailə üzvlərinin Qarabağda ruslar tərəfindən amansızlıqla qətlə yetirildiyini eşidir. Bu xəbərdən bərk sarsılır və uzun müddət özünə gələ bilmir. Vaxtilə Qarabağdan gətirdiyi xidmətçiləri ilə Qum şəhərinə köçür.

Tarixin yaddaşında məğrur şairə, humanist məlikə, savadlı diplomat kimi qalan Ağabəyim ağa İbrahimxəlil qızı Cavanşir 1832-ci ildə vəfat edib, Qum şəhərində dəfn olunub.

**Savalan Fərəcov**

# Cənnəti cəhənnəmə döndərən xatirələr



### “Mən yazacam”

Şuşaya hələ yola düşməmişdən demişdim ki, mütləq ora da baş çəkəcəyəm. Çünki Birinci Qarabağ müharibəsində əsir, girov götürülmüş soydaşlarımızın zaman-zaman eşitdiyimiz xatirələrində lənətlənmiş bir yer də vardı – Şuşa həbsxanası...

Düzdü, sonra ani tərəddüd də etdim. Hazır deyildim bəlkə də. Məsələn, əsirlikdən qurtulanların xatirələrində təsvir etdikləri işgəncə kameralarını, cəza mexanizmlərini, daş-qalaq yerlərini görmək mənə ağır gəlirdi. Məhz bu an içimdən bir sızıltı keçdi. Əl-ayağım uyuşdu, dodaqlarım əsdi. Sonra özümü toplayıb, yol yoldaşımız olan digər həmkarıma qətiyyətlə “Oradan reportajı mən yazacam” dedim. Razılaşdıq və Şuşa həbsxanasına aparan daş döşəməli yolla ayağımızdan daş sallanıbmış kimi ağır-ağır üzüaşağı endik.

Müvafiq icazədən, nəzarətçilərlə dialoqdan sonra çəkiliş ilə gəzintiyə şərait yaradıldı.

### “Özləri ilə daş gətirirdilər”

Həbsxananın həyətinə daxil olarkən açıq qapılardan gələn kif qoxusu məni qarsıtdı. Özümü o yerə qoymayıb 44 günlük Vətən müharibəsi dövründə top zərbələrindən nisbətən dağılan mühafizə divarlarını göstərib “Sağ ol, əsgər, qisasımızı qiyamətə qoymadın” deyib qəhərləndim.

“Buranın gecəsi ilə gündüzü arasındakı fərq mənim üçün çox maraqlıdır. Baxın, quşlar cəh-cəh vurur, adamı darıxmağa qoymur, əhval-ruhiyyəsini dəyişir. Yəqin gecəsi daha səssiz olar” dedim.

Bayaqdan məni müşayiət edən və çoxsaylı, bir qədər də sadəlövh suallarıma cavabı qızırqanan hərbi qulluqçumuz narahat, bir az da qətiyyətlə “Əksinə, buranın gecələri daha səs-küylü olur” deyib yarısı dağıdılmış iri darvazanın düz qarşısında dayandı.

Yağışdan sonra yaranan gölməçəyə düşən əksinə baxa-baxa “Burada gecələr eşitdiyim səsləri ömrümün axırınadək unutmayacam. Başa düşürsüz, heç kimə izah da edə bilmirəm e. İndi deyəcəksiniz ki, daş-divarın arasında qalmaqdan havalanıb yəqin. Amma, vallah, bu, belə deyil. Gecələr buradan elə vahiməli səslər gəlir ki, adam az qalır divarları yumruqlasın” deyib duruxdu.

Yalnız bu an harada olduğumun əməllicə fərqinə varıb “Yəqin işgəncə görən qız-gəlinlərin, oğul-uşaqların harayıdır. Təbii, hamımız bunu hiss edirik” deyəndə sözümü kəsdi. Qaradinməz gənc qalın qara qaşlarını çataraq “Yox, kişilərin iniltisinə, bağırmamaq üçün səslərini boğmaqlarına, ağrıdan, əzabdan hayqırmağa oxşayır” deyib məni varımdan yox elədi. Bu an onun dağ günəşindən yanmış üzündəki xırda gözlərinin, onların içindəki hiddət və kədərin böyüklüyünü kəşf etdim.

O, bizi müşayiət üçün yenidən önə keçdi, biz də arxasınca...

### Heyrət içində

Fotoqrafımız Həbib fotoaparatını işə salalaraq özünəməxsus yanğı ilə “Cənnətin cəhənnəmi belə olurmuş, yəqin” deyib ilk kadrı “tutmaq” üçün bir gözünü qıyıb, aparatını üzünə yaxınlaşdırdı.

Aman Allah, haqlı idi, bayaqdan min bir gözəl sözlərlə vəsf edib, əzəmətinə məftun olduğumuz Şuşanın, cənnətməkanın cəhənnəmidir bura. Adı gələndə sümüklərin sızıldayıb, əsəblərin tarıma çəkildiyi Şuşa həbsxanası.

O həbsxana ki, orada yüzlərlə azərbaycanlı verilən işgəncələrdən, gördükləri qeyri-insani münasibətdən, ağrının şiddətindən, məruz qaldıqları zülmün miqyasından hər günü, Allahın verdiyi hər günü ondan ölüm diləməklə keçiriblər.

Əsir qız-gəlinlərimiz hər an özlərinə qəsd etmək üçün planlar qurublar. İgid Vətən oğullarımız dözülməz fiziki və mənəvi işgəncələrə tablaşmayaraq, əl-qolları bağlı ola-ola naqis düşmənin üzərinə atılıblar. Beləcə səngərdə igidlik nümayişlərini, girovluqda, doğma vətəndə düşmən əsirliyində də davam etdiriblər.

Bələdçimizin düşmən haqqındakı layiqli təsvir-cavabından sonra sağa, həbsxananın həyətinə buruldüq. Giriş hissədəki su hovuzunun, belə demək mümkünsə, gəzinti yerinin yanında özüm qəsdən dayanmadım. Elə bildim arxamızca yenə bir sürü düşmən gəlir. Azərbaycanlı əsir və girovlara tamaşa etmək, söymək, döymək, daşqalaq etmək üçün sıralanıb.

**Qeyd.** “Şuşa həbsxanası 1848-ci ildə çar Rusiyası dövründə inşa olunub. Həbsxana Şuşa qalasının şərq tərəfində yerləşir və qalanın aşağı divarları həbsxanaya söykənir. SSRİ dövründə qapalı tipli cəzaçəkmə müəssisəsi kimi fəaliyyət göstərib. Həbsxananın inşası zamanı qala divarlarının bir hissəsi və müdafiə qüllələri həbsxana divarları kimi istifadə edilib. Bu zaman Şuşa qalasının Ağoğlan qapısı həbsxanaya giriş kimi dəyişdirilərək yenidən formalaşdırılıb. Şuşa həbsxanasının 99 kamerası olub ki, bunların 96-da dustaqlar qalıb, 3-ü isə cərimə otağı kimi istifadə olunub...”.







...1992-93-cü illərdə Şuşa həbsxanasında əsir saxlanılan həmvətənlərimizin qan donduran xatirələrini dinləyəndə məhz bu hissə – “fəvvarənin yanı” dedikləri ərazi yaddaşıma ox kimi batmışdı. Verilən işgəncələr içərisindən ən çox bu alçatma, əzmə, incitmə forması üzmüşdü onları. Keçmiş əsirlərdən biri “Avtobuslarla erməni qadınları, məktəbliləri gəlir və bizi söyməkdən, döyməkdən, daşa basmaqdan zövq alırdılar. Əslində, yerdə daş-kəsək olmurdu. Hər gün özümüzə təmizlətdirirdilər. Amma mənə maraqlı gəlirdi ki, bu uşaqlar, yaşlı qadınlar daşları haradan çıxardıb atırlar. Sonra öz aramızda danışarkən bildik ki, özləri ilə gətirirlər. İndiyə qədər mənə ağrı verən məhz o hissdir. İnsan nə qədər xəstə və nə qədər azğın olmalıdır ki, köməksiz adamı vurmaq üçün cibində, çantasında daş gəzdirsin” demişdi.

Həbsxananın saxlama yerlərindən – daş yığını müxtəlif təyinatlı tikililəri önündən ötərkən torpaq sahəsi – çəpərlənmiş ərazi diqqətimi cəlb etdi. Yamyaşıl, gözoxşayan sahəyə keçdim. Yaşıllığın düz ortasında bir topa lalə açmışdı. Alqırmızı lalələrin ləçəkləri xəfif mehin təsirindən bir-bir qopub otlara toxunurdu. Bütün bu gözəlliyin – mavi səmanın altındakı yaşıl ilə qırmızının harmoniyasında yenə qanım qaraldı, əhvalım təlx oldu. Mənə elə gəldi ki, məhz bu lalələr zamanında bağrı qan olub, bütün əzaları bir-birindən ayrılacaq qədər dözülməz ağrılara tablaşan adamların ürək, göz rəsmləridir.

Lənət şeytana, yenə yanılmamışdım. Bir-iki addım arxaya gedəndə ağzıaçıq betonlanmış dərinlik diqqətimi çəkdi. Qeyri-ixtiyari müşayiətçimizə baxdım. Bu dəfə bir-birimizi sözsüz anladıq. Düz təyin etmişdim, bu yaşıla bürünmüş torpağa zamanında çox qan axmış, erməni nəzarətçilərin əyləncə yeri olan bağçada çox canlara qıyılmışdı...

### Bacasız kamera, qaranquş yuvası, gülü qurumuş dibçək

İşğal illərində əsir və girovların saxlanıldığı kameraların olduğu tikiliyə daxil oluruq. Zülmətdən bir cüt qaranquş pırıltı ilə çölə uçur.

Dəhliz boyu yerə tökülən əşyalara ilişə-ilişə irəli tələsirik: top zərbəsinin qalın mühafizə divarının küncündə açdığı kiçik dəlikdən şığıyan günəş işığının altına. Yalnız bu zaman hamımız dərindən nəfəs aldıq. Qəribədir, həm də eyni vaxtda başımızı qaldırıb, nəzərlərimizi işıq nöqtəsinə zillədik. Gözünü qıyan hərbçimiz “Bizim əsirləri məhz burada, bu soyuq və qaranlıq yerdə saxlayıblar, əclaflar. Düzdü, bura onsuz da soyuq olan yerdir. Amma bir zərrə işığın, havanın olmadığı yerdə insan saxlamaq olar?” deyib qeyri-ixtiyari cavab gözləyirmiş kimi üzümüzə baxdı.

Haqlı idi, qalınlığı 70 santimetr, bəzi yerlərində isə 1 metr olan buz tutmuş divarlarda insan çətin isinər. Həmin gün Şuşa günəşinin daha səxavətli olmasına rəğmən, üşüdüm. Çiyinlərimi çəkib telefonun işığında divarlara tamaşa eləməyə başladım. Bir zamanlar günahsız azərbaycanlı əsir və girovların qanlarının yaxıldığı divarlarda indi başqa izlər var idi. Cəsur Azərbaycan əsgərinin əl izləri. Azərbaycanın hər bölgəsinin, hər şəhərinin, hər mahalının adı, o torpaqlarda yetişən yenilməz oğullarının adları bəzəmişdi divarları...

Uzun dəhlizin solundakı kameralardan birinə daxil olduq. Dağılmış otaqdakı su kranının yanında bir dibçək diqqətimi çəkdi. Gülü çoxdan quruyan qaba solan ümidlərini sığdırmağa, bununla onlara can verməyə çalışan insanı gözümdə canlandırmaq istədim. Amma bacarmadım, daha doğrusu, buna macal tapmadım.

> Bir zamanlar günahsız azərbaycanlı əsir və girovların qanlarının yaxıldığı divarlarda indi başqa izlər var idi. Cəsur Azərbaycan əsgərinin əl izləri. Azərbaycanın hər bölgəsinin, hər şəhərinin, hər mahalının adı, o torpaqlarda yetişən yenilməz oğullarının adları bəzəmişdi divarları...

Nəfəsim kəsilirdi. Özümü dəhlizə atdım, ağır dəmir qapını da qeyri-ixtiyarı arxamdan çırpdım. Bilmirəm niyə, amma mənə elə gəldi ki, məhz bu kamerada saxlanılıb namusuna xələl gəlməsin deyə canına qıyan Dilavərimiz, Sonamız, Yaqutumuz...

### Könüllü məhbus

Bir neçə dəqiqənin içində həbsxananı əzab içində dolaşdım. Dolaşdıqca da düşmənə kinim birə-beş artdı. Gözlərim önünə əzab çəkən məsum üzlər, yaşlı gözlər, pərişan saçlar gəldi. Özümdən asılı olmayaraq, bayaqdan divarlara sürtməkdən toz-torpaq olmuş əllərimi qulaqlarıma apardım. Harayı Şuşa dağlarında cingildəyən qadınların səsini eşitməmək, körpələrin qışqırtısını duymamaq üçün ovuclarımla qulaqlarımı tıxadım. Elə bildim başım çatlayacaq, bəbəklərim çuxurundan çıxacaq.

Özümü çölə nə vaxt atdığımı xatırlamıram. Nəfəsimi dərib, bələdçimizin arxasında digər korpusun həyətinə keçdim. Sonuncu bina idi. Həbsxana rəhbərliyinin özləri üçün düzəldikləri xidməti otaqlar buradaydı. İçəri girmək istəyəndə ayağıma nə isə ilişdi. Əyilib baxanda tapdalanmış erməni hərbçi papağı olduğunu görüb, dikəldim. Dabanımı yerə bərk basıb, tapdaladım. Ürəyim soyumadı, təpiklə görünməz yerə – taxta yığınının arxasına atdım. Beləcə, onlardan qalan sonuncu izi də belə itirmək istədim. Bu an gözüm dəmir-dümürün qalaqlandığı yerə atılmış tikiş maşınına sataşdı. Öz-özümə “Bunun burda nə işi var” sualını verdim. Bələdçimiz “Əclaflar, illər ərzində bizim evlərimizi bir-bir gəzərək, əllərinə keçənləri siçovul kimi daşıyıblar. Yəqin bu da onlardan biridir” deyəndə köhnə tikiş maşınına tərəf getdim, tozunu silib, arxasındakı dairəvi dəmir qapağa baxdım. O maşından nənəmdə də var idi. Əksər qadınlar məhz həmin kiçik lövhəyə adlarını yazdırırdılar. Bunu bildiyimdən tez paslanmış dəmiri çevirdim. Nə isə qeyd var idi, amma oxuya bilmədim, daha doğrusu, cəhd eləmədim, lap doğrusu, istəmədim...

### Bir dualıq

“Allah kimsəni bağlı qapılar arxasında, çarəsiz qoymasın” deyib geriyə – gəldiyimiz əsas girişə yaxınlaşdım.

Kitablardan, internet portallarından haqqında az-çox məlumat olan bu tarixi tikiliyə, yaddaşımızda qara yaraya dönən Şuşa həbsxanasına bir də kənardan boylandım. Onlarla həmvətənimizin əsirlik zamanı başlarına gətirilənlər, qürurlarına sığışdırıb, dillərinə gətirə bildikləri, qiyamətə qədər unutmayacaqlarını yaddaşımın o üzündə qoymaq üçün həbsxananın həyətinə bir də göz gəzdirdim. Su kranına yaxınlaşıb əl-üzümü yudum. Beləcə, üz-gözümə hopan kədərin kirini çıxarmağa çalışdım. İstədim qapıdakı qalib Azərbaycan əsgərləri, həbsxana divarlarından aşağıda – “sülhməramlı çətiri altına” sığınıb hələ də bizə qarşı düşmənçiliyindən qalmayanların mövqelərini bir an belə nəzarətsiz qoymayan igidlərimiz məni qəmgin, bitkin görməsinlər. Hə, xalqımızın bir də “Ay dost, vay düşmən” sözü də var, axı. Bunu yadıma salıb yağı tərəfə qanrılaraq, qalib ədası, böyük qürur ilə gülümsədim...

**Həmidə Nizamiqızı**
**Foto: Həbib Hüseynov**

# Sabirin 160 illiyi münasibətilə kitabxanaların virtual təqdimatları

Mayın 30-da böyük şair, mütəfəkkir, maarifçi Mirzə Ələkbər Sabirin (1862-1911) anadan olmasının 160 illiyi tamam oldu.



Milli ədəbiyyatda tənqidi realizmin yaradıcılarından biri kimi geniş şöhrət qazanmış şair bədii fikirdə humanizmin və demokratik ideyaların, milli oyanış və dirçəlişin ən fədakar carçılarındandır. O, türk-müsəlman dünyasında satirik şeirin qüdrətli təmsilçisi kimi tanınır.

M.Ə.Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapıb. "Molla Nəsrəddin" jurnalı ətrafında formalaşmış ədəbi cərəyanın aparıcı simalarından olan mütəfəkkir şairin yüksək istedadla yaratdığı əsərlərin başlıca mövzusunu mənəvi saflığa, mədəni yüksəlişə və maariflənməyə çağırış təşkil edib.

Şairin 160 illik yubileyinin keçirilməsi ilə əlaqədar Mədəniyyət Nazirliyinin tədbirlər planına müvafiq olaraq M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası "Mirzə Ələkbər Sabir – 160" adlı virtual sərgi hazırlayıb. Sərgidə M.Ə.Sabir haqqında fotolar, onun müəllifi olduğu və haqqında yazılan kitablar, dövri mətbuat səhifələrində dərc edilmiş məqalələr nümayiş olunur.

***

Respublika Gənclər Kitabxanası böyük şairin 160 illiyi münasibətilə videomaterial və biblioqrafik icmal hazırlayıb.

Videomaterialda görkəmli ədibin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib, əsərlərindən nümunələr təqdim olunub. Burada görkəmli şəxslərin Sabir haqqında söylədikləri dəyərli fikirlər, ədibin mütərəqqi fikirləri də yer alıb. Materialda məhz Sabirin simasında mollanəsrəddinçi satirik şeir məktəbinin formalaşması, məşhur "Hophopnamə"nin təkcə Mirzə Ələkbər Sabirin yox, bütövlükdə "Molla Nəsrəddin" satirik şeir məktəbinin ucalığını göstərən dəyərli bir külliyyat olması vurğulanıb.

Azərbaycan və rus dillərində tərtib edilən biblioqrafik icmalda M.Ə.Sabirin müəllifi olduğu və haqqında yazılan 20-dən çox kitabın qısa xülasəsi və görüntüləri təqdim edilib.

Respublika Gənclər Kitabxanası Sabirin 160 illik yubileyi ilə əlaqədar geniş elektron baza üzərində işləyir. Elektron baza yaxın zamanlarda internet istifadəçilərinə təqdim olunacaq.

# Tamamlanmayan uğur sahibi

Kino təsadüfləri sevmir. Sənətə bağlananları, sevərək üz tutanları isə yaddaşlarda, qəlblərdə yaşadır, kinoda keçən ömürləri milyonların əziz xatirəsinə çevirir. Əməkdar artist Tanilə Əhmərovanın (1950-2015) filmlərdə yaratdığı rolları da çoxsaylı kinosevərlərin diqqətindən yayınmır, xatirəsi əziz tutulur, anılır...





Özünəməxsus ifa tərzinə, yaradıcılıq təqdimatına görə yaddaşlarda kök salan aktrisanın doğum günündə ömür yoluna, həmçinin həmkarlarının xatirələrində yaradıcılığına nəzər salırıq.

## Məsum simalı xanım

Tamaşaçı yaddaşında daha çox "Qayınana" kinokomediyasından məsum simalı xanım (Sevda) kimi qalan Tanilə Əhmərova hələ kiçik yaşlarından sənət sevdalısı olub. 1950-ci il iyunun 1-də Bakının Sabunçu qəsəbəsində dünyaya göz açan gələcəyin aktrisası orta məktəbdə oxuyarkən məktəbin dram dərnəyində çıxış edib. 1972-ci ildə Dövlət Teatr İnstitutuna (indiki ADMİU) daxil olub, teatr, kino sənətinin sirlərini öyrənib. İnstitutu 1977-ci ildə bitirdikdən sonra həmin ildən "Azərbaycanfilm"də aktrisa kimi fəaliyyətə başlayıb.

Kinoda debütü (Nərgiz) "Üzü küləyə" (1977) filmində olub. Xəzər dənizinin çirklənməsindən, quşların qorunmasından, gənclərin təbii sərvətlərə qayğı ilə yanaşmasından və onların mənəvi kamilliyindən bəhs edən filmdə Tanilə Əhmərova yaradıcılıq qismətinə düşən ilk ekran personajını səmimi, inandırıcı ifa tərzi ilə təqdim edib, bununla da növbəti kino obrazlarının ardıcıllığına zəmin yaradıb.





Filmin quruluşçu rejissoru Əbdül Mahmudov aktrisa ilə olan yaradıcılıq işini belə xatırlayır: "Üzü küləyə" filminin çəkilişləri Lənkəranda aparılırdı. Tanilə xanımı çəkiliş məkanına bir müddət tez apardım. O, şəhər libasını dəyişib balıqçı libası geyindi və bir neçə müddət çəkiliş qrupumuzla birlikdə balıqçı briqadası ilə çalışdı. Orada mən də, digər heyət üzvləri də, Tanilə xanım da balıqçılarla birlikdə işləyir, toru çəkmələrinə, müəyyən işlərinə kömək edirdik. Bir gün o gülümsəyərək "mən artıq rolu oynamağa tam hazıram, demək olar ki, peşəkar balıqçı olmuşam" dedi.

Onu da qeyd edim ki, Tanilə xanımın xahişinə əsasən onun üçün ayrıca məşq vaxtı təyin etmişdim. Hazırlıq dövrü bitdikdən sonra çəkiliş meydançasına çıxanda o, rolu tam mənimsəmişdi və çox işləyirdi. Beləcə, Tanilə Əhmərova kinoda ilk dəfə baş rola çəkildi".

## Nailiyyət dövrü

70-ci illəri Tanilə Əhmərova üçün nailiyyət dövrü adlandırmaq olar. "Üzü küləyə" filmindən sonra aktrisa Rasim İsmayılov, Eldar Quliyev və Hüseyn Seydizadə kimi peşəkar kinematoqrafçıların filmlərinə dəvət aldı, uğuruna uğur qatdı.

Görkəmli kinorejissor Hüseyn Seyidzadənin "Qayınana" kinokomediyasındakı Sevda obrazı aktrisanın şöhrətini daha da artırdı. Əbdül Mahmudovun xatirələri aktrisa haqqındakı məlumatımızı genişləndirir: "Tanilənin simasında anadangəlmə bir məsumluq var idi. Seyidzadəyə də məhz belə görünüşlü aktrisa lazım idi. Amma çox tələbkar olduğundan tərəddüd edirdi. Bir gün məndən soruşdu ki, səncə, Taniləni baş rola çəkmək olar, ya yox. Dedim, mən çəkdim, oldu, inanın ki, Sevda rolu elə məhz Tanilə xanım üçündür. Beləliklə də, o, Sevda roluna təsdiqləndi...".

"Azərbaycanfilm" Kinostudiyasında istehsal olunan 10-dan artıq filmdə ("Əlavə iz"də Bağırova, "İlıq dənizdə buz parçası"nda gəlin, "Qəribə adam"da Aytən, "Tələ"də Rübabə Babayeva və s.) irili-xırdalı rol oynayan aktrisa hər bir personajını özünəməxsus çalarlarla yaratdı, yaddaşlara yazdı. Aktrisanın yaradıcılıq qismətinə düşən obrazlar genişplanlı olmasa da, personajların həyat mövqeyini, düşüncə tərzini, psixologiyasını realist səpkidə çatdırdı, tanıtdı.

Həyata, düşüncələrə, insan münasibətlərinə obrazları vasitəsi ilə müdaxilə etməyi bacaran aktrisanın uğurlu rollarından biri də "Şir evdən getdi" filmindəki Şəfiqə müəllimədir. O, kiçikplanlı rolun təfsirində pedaqoji fəaliyyət üçün uşaq psixologiyasının incəliklərinə bələd olmağın labüdlüyünü, başlıca şərt olduğunu incə nüanslarla göstərib, təbliğ edib.

Əməkdar incəsənət xadimi, kinorejissor Elxan Cəfərov aktrisanı böyük sevgi hissi ilə yad edir: "Tanilə xanımla ilk dəfə "Sevinc buxtası" (1977) filminin çəkilişləri zamanı görüşmüşəm. Filmdə o, baş qəhrəman Nazimin sevdiyi qadını (Leyla) oynayırdı, mən isə susatan oğlan rolunu (Atamoğlan) canlandırırdım. Elə həmin andan o mənim yaddaşımda məsum simalı, zərif, həssas bir xanım kimi qalmışdı. Onda mən uşaq idim, bu xanımın kimliyini o qədər də dərk etmirdim. Amma sonralar başa düşdüm ki, Tanilə xanımın Azərbaycan kinosunda özünəməxsus yeri var.

Tale elə gətirdi ki, "Sevinc buxtası" filmindən sonra həmin il "Şir evdən getdi" filmində biz tərəf-müqabil olduq. Mən baş rol olan Rüstəm obrazını, o isə Şəfiqə müəllimə rolunu canlandırırdı. Uzun illər keçdikdən sonra biz kinostudiyada təsadüfən rastlaşdıq. Onu da qeyd edim ki, həmin vaxt kinostudiyanın aktiv dövrü deyildi. Bir qadın qarşımda dayandı və "Elxan, salam, məni tanımadın?" dedi. Onda mən artıq bir neçə filmə çəkilmişdim, institutu bitirmişdim, rejissorluq fəaliyyətimə başlamışdım. "Sözün düzü, tanıya bilmədim" deyə etiraf etdim. "Mən Tanilə xanımam" dedi. Onun bu sözündən sonra, tanımadığım, əslində isə uşaqlıq illərimin xoş xatirələri ilə bağlı olan bu insanı və yaxın keçmişimi kövrək hisslərlə xatırladım, kinostudiyanın həmin illərdəki qaynar ab-havası gözlərim önündə canlandı. Uşaqlığımdan incə, zərif, gözəl xanım kimi tanıdığım, görüşdüyümüzdə isə sanki peşədən, yaradıcılıqdan kənarda qalmış bir xanımı gördüm və daxili bir sarsıntı keçirtdim. Mən Tanilə xanıma kövrək duyğularla baxırdım. Çünki kinostudiyanın aktiv dövründən sonra tənəzzülə uğradığı dövrü görmək hamımıza pis təsir etmişdi. Mən, təbii ki, sonra ona "əlbəttə, Tanilə xanım, sizi tanıyıram, yadımdasınız" dedim. Bu sözlərdən sonra onun gözləri işıqlandı. O gözlərdə keçmişində böyük uğurlara imza atmış bir insanın incəsənətin arxa planda qaldığı, kinostudiyada filmlərin az çəkildiyi bir dövrdə məyusluğunu gördüm. Bu mənə çox təsir elədi.

Həmin söhbətdən sonra biz onunla kinostudiyada bir-iki dəfə yenə görüşdük. Hətta planlaşdırmışdım ki, film çəkəndə mütləq Tanilə xanıma müraciət edim. Amma deyirlər, sən saydığını say, gör fələk nə sayır. Tanilə xanım qısa bir müddətdən sonra dünyasını dəyişdi. Düşünürəm ki, onun yaradıcılıq nisgili dünyadan köçməsinə bilavasitə zəmin yaratdı. Allah ona rəhmət eləsin. O, mənim üçün zərif, nəcib, gözəl və həssas bir xanım idi, olaraq da qalır...".

"Sevinc buxtası" filmində Leyla rolunun təfsirində həyatı çətinliklər, məşəqqətlər içərisində keçən, qarşılaşdığı çətinliklərə güclə tab gətirən sadə ev xanımının ümumiləşdirilmiş obrazını görürük. Rolun təfsirində dövr hadisələrinin gərginliyini, ictimai bərabərsizliyi, mürəkkəb münasibətlərin üstünlük təşkil etdiyini, ağır, çətin mühitdə puç olan talelərin kədərini, nisgilini izləyirik, duyuruq. Obrazın fərdi cəhətlərini, həyat mövqeyini çatdırma imkanı geniş olmasa da, aktrisanın inandırıcı təqdimatı yaradıcılıq münasibətinin dəqiqliyini, roluna yanaşma məsuliyyətinin ciddiliyini təsdiqləyir.

Ekran personajlarına məsuliyyətlə yanaşma tərzini Tanilə xanımın "İşarəni dənizdən gözləyin" tarixi-bioqrafik filmində oynadığı qadın surətində də görürük. Dövrünün reallığında, çətin, ağır durumda məhv olan talelər, puç olan arzular Tanilə Əhmərovanın filmdə canlandırdığı qadın surətinin üzərində cəmlənib. Obrazda köməksiz, əlacsız prototipin nisgilli ömür yükünü, çıxılmaz həyat tərzini məsum, kədərli baxışlarında duyuruq, hiss edirik.

## Çox çəkilsəydi, daha gözəl rollar yaradardı

O, sənətdə uğurlarını tamamlamadan, yaradıcı potensialını istədiyi kimi nümayiş etdirmədən həyatdan getdi. Əməkdar mədəniyyət işçisi, kinorejissor, aktyor Nadir Əzməmmədovun fikirləri də aktrisa ilə bağlı düşüncələrimizi təsdiqləyir: "İşarəni dənizdən gözləyin" filmində Tanilə xanımla işləmişəm. Baxmayaraq ki, filmdəki rolu kiçikplanlı idi, yenə də rolunu məharətlə oynadı, xarakterini dəqiqliklə çatdırdı. Çəkiliş meydançasına gələndə biz aktyorlarla ünsiyyət qururduq. Ancaq Tanilə xanım, demək olar ki, heç kimlə ünsiyyət qurmurdu. Çox təmkinli, sakit insan idi. Sonralar bildiyimiz kimi, 90-cı illərdə kinostudiya bağlandı, hərə bir işlə məşğul oldu, bizim bir-birimizdən xəbərimiz olmadı. İllər sonra isə eşitdik ki, o, dünyasını dəyişib. Düşünürəm ki, yaradıcılıqdan kənarda qalmağı da onun sağlamlığına mənfi təsirini göstərdi. Təəssüf edirəm ki, onu filmlərə çox çəkmədilər. Əlbəttə ki, çox çəkilsəydi, daha gözəl rollar yaradardı...".

Tanilə Əhmərova uzun sürən xəstəlikdən sonra 4 avqust 2015-ci ildə dünyasını dəyişib...

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 1-3 iyun

### Azərbaycan

**1 iyun 1920** – Xalq artisti Raxil Solomonovna Ginzburq (1920 – 6.12.1995) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası olub.

**1 iyun 1936** – Xalq artisti, dirijor Nəriman Abbasqulu oğlu Əzimov (1936 – 19.11.2016) Gəncədə doğulub. Azərbaycan Televiziyası və Radiosunun Səid Rüstəmov adına Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

**1 iyun 1939** – Ali Sovetin Rəyasət Heyəti Azərbaycan Dövlət Ümumi Kitabxanasına (indiki Milli Kitabxana) M.F.Axundzadənin adının verilməsi barədə qərar qəbul edib. Elmlər Akademiyasının binasında yerləşən kitabxana 1961-ci ildə indiki binasına (arxitektor Mikayıl Hüseynov) köçüb. 1962-ci ildə binada M.F.Axundzadənin büstü (heykəltəraş İbrahim Zeynalov) qoyulub.

**1 iyun 1940** – Əməkdar rəssam Ənvər Əsgər oğlu Əsgərov (1940-2014) Qəbələ rayonunda anadan olub. Abşeronun koloriti, sənaye mənzərələri ilə bağlı tabloların, natürmortların müəllifidir.

**1 iyun 1943** – Əməkdar mədəniyyət işçisi Arif İzzət oğlu Həbibi (1943 – 21.1.2021) anadan olub. "Azərbaycanfilm" Kinostudiyasında rejissor assistenti, dublyaj rejissoru, Dublyaj şöbəsinin müdiri işləyib.

**1 iyun 1944** – Əməkdar artist Mübariz Əlixan oğlu Paşayev (1944 – 31.8.2006) Zəngilan rayonunda doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrının, Gənc Tamaşaçılar Teatrının aktyoru olub, filmlərdə ("Qərib cinlər diyarında", "Dantenin yubileyi" və s.) çəkilib.

**1 iyun 1950** – Əməkdar artist Tanilə Aysayevna Əhmərova (1950 – 4.8.2015) Bakıda anadan olub. Filmlərdə yaddaqalan obrazlar yaradıb: "Sevinc buxtası" (Leyla), "Qayınana" (Sevda), "Üzeyir ömrü" (Üzeyirin anası) və s.

**1 iyun 1953** – Əməkdar artist, teatr və kino aktyoru Ömür Məlik oğlu Nağıyev (1953 – 31.12.2013) anadan olub. 30-dan çox filmdə çəkilib. Bakı Bələdiyyə Teatrında, Rus Dram Teatrında çalışıb.

**2 iyun 1979** – Tanınmış kinorejissor, Əməkdar incəsənət xadimi Hüseyn Əli oğlu Seyidzadə (15.10.1910 – 1979) vəfat edib. "O olmasın, bu olsun", "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərə quruluş verib.

**2 iyun 2013** – Milli təsviri sənətimizin görkəmli nümayəndəsi, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatları laureatı Toğrul Fərman oğlu Nərimanbəyov (7.8.1930 – 2013) Parisdə vəfat edib. Passi qəbiristanlığında dəfn olunub.

**3 iyun 2006** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Mikayıl Mirzə (Mikayıl Şahvələd oğlu Mirzəyev; 1.1.1947 – 2006) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**3 iyun 2006** – Xalq artisti, tanınmış vokal ifaçısı, aktyor Mobil Salman oğlu Əhmədov (10.9.1931 – 2006) vəfat edib. 40 ilə yaxın Musiqili Komediya Teatrında çalışıb, tamaşalarda əsas rolları ifa edib.

### Dünya

**1 iyun 1804** – Rus bəstəkarı Mixail İvanoviç Qlinka (1804-1857) anadan olub. "İvan Susanin", "Ruslan və Lüdmila" operalarının müəllifidir.

**1 iyun 1850** – Türk yazıçısı Şəmsəddin Sami (1850-1904) anadan olub. İlk türk romanı sayılan "Taaşşuk-ı Talat və Fitnat" əsərinin müəllifi, türk dili lüğətinin tərtibçisidir.

**1 iyun 1926** – Amerika aktrisası, müğənni Merilin Monro (Marilyn Monroe – əsl adı Norma Jean Mortenson; 1926-1962) anadan olub.

**1 iyun 1929** – Hind aktrisası Nərgiz (əsl adı Fatimə Rəşid; 1929-1981) anadan olub. "Avara", "Cənab 420" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**2 iyun 1840** – İngilis yazıçısı, şair Tomas Hardi (Thomas Hardy; 1840-1928) anadan olub.

**2 iyun 1904** – Tarzan haqqında filmlərdə baş rolun ifaçısı kimi tanınan amerikalı Conni Vaysmüller (Johnny Weissmuller; 1904-1984) anadan olub. Məşhur idmançı üzgüçülük üzrə beş dəfə Olimpiya çempionu olub.

**2 iyun 1988** – Dünya şöhrətli hind aktyoru və rejissoru Rac Kapur (Raj Kapoor; 14.12.1924 – 1988) vəfat edib. Filmləri: "Avara", "Cənab 420" (aktyor), "Sanqam", "Bobbi", "Abdulla" (rejissor) və s.

3 iyun 1875 – Fransız bəstəkarı Jorj Bize (Georges Bizet - Alexandre-Cesar-Leopold Bizet; 25.10.1838 – 1875) vəfat edib. Operaları: "Karmen", "Camile", "Mərcan axtaranlar" və s.

3 iyun 1924 – Yəhudi əsilli çex-alman yazıçısı, filosof Frans Kafka (Franz Kafka; 3.7.1883 – 1924) vəfat edib. Əsərləri: "Bir xanımın xülasəsi", "İtaətkarla söhbət", "Çevrilmə", "Qəsr", "Kənd həkimi" və s.

3 iyun 1963 – Türk şairi, yazıçı-dramaturq Nazim Hikmət (15.1.1902 – 1963) Moskvada vəfat edib. Siyasi baxışlarına görə 1951-ci ildə SSRİ-yə mühacirət etmişdi. Əsərləri əsasında "Yaşamaq gözəldir, qardaşım", "Bir məhəllədən iki nəfər" ("Azərbaycanfilm"), "Məhəbbətim mənim, kədərim mənim" (SSRİ-Türkiyə) filmləri çəkilib.

**Hazırladı: Vüqar Orxan**

# "Qarabağın incisi – Şuşa"

## Tarix Muzeyində rəsm və əl işləri müsabiqəsinin sərgisi



AMEA Milli Azərbaycan Tarixi Muzeyində "Qarabağın incisi – Şuşa" mövzusunda II Respublika rəsm və əl işləri sərgisinin açılış mərasimi keçirilib.

Muzeydən bildirilib ki, Azərbaycanın bölgələrindən müxtəlif yaş qruplarından olan yaradıcı şəxslər öz əl işləri ilə iki kateqoriya – təsviri incəsənət və tətbiqi sənət üzrə müsabiqədə iştirak ediblər.

Münsiflər heyətinin üzvləri – muzeyin baş direktoru, akademik Nailə Vəlixanlı, Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov, muzeyin Təsviri materiallar fondunun müdiri Nardanə Yusifova, Əməkdar mədəniyyət işçisi, muzeyin bərpaçı-rəssamı Gülşən Hacıyeva və Azərbaycan Dövlət Teatr Muzeyinin direktor müavini Nazim Məmmədov tərəfindən sərgidə nümayiş olunan əl işləri dəyərləndirilib.

Seçilən əl işlərinin müəllifləri fəxri fərmanlarla təltif olunublar. Müsabiqənin bütün iştirakçılarına sertifikat verilib.

Layihənin rəhbəri və kuratoru muzeyin əməkdaşı Aynur Babayevadır.

Xatırladaq ki, müsabiqəyə rəsm və əl işlərinin qəbulu fevralın 24-dən başlanmışdı.

№41 (1914)
1 iyun 2022
www.medeniyyet.az

# "Festival başa çatsa da, qardaşlığımız davam etdiyinə görə xoşbəxtik"

## "TEKNOFEST Azərbaycan" çərçivəsində konsert proqramları da təşkil olunub




Xəbər verdiyimiz kimi, 26-29 may tarixində Bakıda "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı keçirilib. Festival "Baku Kristal Hall" və onun ətrafında – Dənizkənarı bulvar ərazisində Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Sənaye və Texnologiya Nazirliyi və "Türkiye Teknoloji Takımı" – T3 Vəqfi tərəfindən təşkil olunub. Selçuk Bayraktarın rəhbərlik etdiyi T3 Vəqfinin təşəbbüsü ilə 2018-ci ildən keçirilən festival bu il ilk dəfə Türkiyədən kənarda reallaşıb.

Dörd gün ərzində müxtəlif nominasiyalarda yarışmalar, təqdimatlar və Bakı səmasında rəngli görüntülər yaradan möhtəşəm uçuş şouları ilə yadda qalan festival konsert proqramı ilə başa çatıb.

Bağlanış mərasimində rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar çıxış ediblər.

"Həyatımıza məna qatan "TEKNOFEST Azərbaycan"ın sonudur. Festival yekunlaşdığı üçün təəssüflənsək də, qardaşlığımız davam etdiyinə görə xoşbəxtik", – deyə Selçuk Bayraktar vurğulayıb.



Gələcəkdə "TEKNOFEST"in yenidən Bakıda, Şuşada keçiriləcəyini deyən S.Bayraktar əmin olduğunu bildirib ki, festivalda qazanılan təcrübələr Azərbaycan gəncliyinə kömək olacaq, gənclər bu istiqamətdə öz fəaliyyətini bundan sonra da davam etdirəcəklər. "28 mayda Azərbaycanın Müstəqillik Gününü qeyd etdik. 29 may isə İstanbulun fəthinin 569-cu ildönümüdür. Bütün şəhidlərimizi rəhmətlə anırıq, ruhları şad olsun", – deyə S.Bayraktar söyləyib.

O diqqətə çatdırıb ki, növbəti "TEKNOFEST" avqust ayında Türkiyənin Samsun şəhərində keçiriləcək.

Sonda festivalın bağlanışı münasibətilə konsert proqramı və lazer şou təqdim olunub.

Qeyd edək ki, festival çərçivəsində daha bir konsert mayın 28-də, Müstəqillik Günü münasibətilə təşkil olunub. "Baku Kristal Hall"da baş tutan konsertdə gecə boyu təqdim olunan rəngarəng musiqilər və estrada nömrələri minlərlə izləyiciyə xüsusi zövq yaşadıb. Proqramda "Rast" qrupunun solisti, Əməkdar artist Lamiyə Kərimova, "Natiq" ritm qrupu, "Mirvari" rəqs qrupu, Dilarə Kazımova, Samira Ali Maryam, Xəyyam Nisanov, Mehin Hümbətova, Sevda Yəhyayeva, İlqar Xəyal, Azərin Tağıyeva, Tünzalə Ağayeva, Röya Ayxan və Zülfiyyə Xanbabayeva çıxış ediblər.

# Los-Ancelesdə Azərbaycanın Müstəqillik Günü

Azərbaycanın Müstəqillik Günü və Azərbaycan-ABŞ diplomatik münasibətlərinin qurulmasının 30 illiyi Los Ancelesdə qeyd olunub. Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğu tərəfindən keçirilən tədbirdə siyasi xadimlər, rəsmilər, müxtəlif xarici ölkələrin diplomatları, Azərbaycan icmasının üzvləri, həmçinin türk, yəhudi, Pakistan, Koreya, İran və digər icmaların rəhbərləri iştirak ediblər.



Mərasimdə çıxış edən Azərbaycanın baş konsulu, Los-Anceles konsulluq korpusunun duayeni (sədri) Nəsimi Ağayev Azərbaycan tarixində olduqca əlamətdar hadisə olan ilk respublikamızın tarixi haqqında məlumat verib. Azərbaycan-ABŞ münasibətlərinin son 30 ildə inkişaf etdiyini qeyd edən diplomat, bir çox strateji sahələrdə ölkələrimiz arasında sıx tərəfdaşlıq münasibətlərinin yarandığını və bu münasibətlərin ortaq dəyərlərə və maraqlara söykəndiyini vurğulayıb.

ABŞ Dövlət Departamentinin Los-Anceles Ofisinin regional direktoru Qreçen Franke (Gretchen Franke) bütün azərbaycanlıları Müstəqillik Günü münasibətilə təbrik edib. O, ötən son 30 ildə Azərbaycan ilə ABŞ-ın sıx tərəfdaşlara çevrildiyini qeyd edərək, ölkələrimizin Avropada enerji təhlükəsizliyini təşviq etdiyini, qarşılıqlı ticarət və investisiyaların artdığını söyləyib.

Sonra çıxış edən Yuta senatoru Cin Deyvis (Gene Davis) Azərbaycanın ABŞ üçün önəmli strateji tərəfdaş olduğunu və son illərdə ABŞ-ın Yuta ştatı ilə güclü münasibətlərin yaradıldığını vurğulayıb. O, Yuta Senatı və Nümayəndələr Palatasının Azərbaycanın Müstəqillik Günü ilə bağlı qəbul etdiyi bəyannaməni baş konsula təqdim edib.

Los-Anceles Protokol Xidmətinin rəhbəri Lurdes Saab (Lourdes Saab) da Azərbaycan xalqını və azərbaycanlı icmasını bayram münasibətilə təbrik edib.

Tədbirdə baş konsulluğun Müstəqillik Günü ilə bağlı hazırladığı qısa film və milli geyimlərimiz nümayiş etdirilib, xalq mahnıları ifa edilib, Ləman Musayevanın ifasında Azərbaycan xalq rəqsləri təqdim olunub. Qonaqlar Azərbaycan mətbəxinin ləziz təamları və şirniyyatlarının dadına baxıb, müxtəlif nəşrlərlə tanış olublar.

# Xronoqraf

## Tarixdə bu gün

### Zamanın səhifələrində qalan olaylar, faktlar...

**176 il əvvəl...**

**3 iyun 1846-cı ildə** ABŞ qoşunları Meksika ilə müharibədə Yerba-Buena şəhərini ələ keçiriblər. Şəhərin adı dəyişdirilərək San-Fransisko elan edildi. Həmin vaxt kiçik şəhərdə minə yaxın adam yaşayırdı.

**102 il əvvəl...**



**3 iyun 1920-ci ildə** bolşevik işğalına müqavimət göstərən Nuru paşanın başçılığı altında Xalq Cümhuriyyətinin ordu hissələri Şuşa şəhərini ələ keçiriblər. Onların üzərinə XI rus ordusunun əlavə birləşmələri göndərilib. Sayca qat-qat çox olan rus qoşunları Levandovskinin komandanlığı altında iyunun 15-də Şuşanı yenidən işğal ediblər. Milli ordunun azsaylı hissələri Cəbrayıl qəzasına geri çəkiliblər. İyunun sonunda bu bölgə bolşeviklərin nəzarətinə keçdi.

**84 il əvvəl...**

**2 iyun 1938-ci ildə** Azərbaycanda ilk mülki aviasiya dəstəsi təşkil olunub. Bakıda ilk aviasiya məktəbi 1915-ci ildə yaradılmış, 1923-cü ildə Bakı-Tbilisi marşrutu ilə ilk mülki aviasiya xətti açılmış, 1933-cü ildə Binədə ilk hava limanı istifadəyə verilmişdi. 1938-ci ildə ilk mülki aviasiya dəstəsi uçuşlara başladı. Prezident İlham Əliyevin 2006-cı il 18 may tarixli sərəncamı ilə 2 iyun Azərbaycanda mülki aviasiya işçilərinin peşə bayramı günü elan olunub.

**72 il əvvəl...**

**1 iyun 1950-ci ildə** ilk dəfə Beynəlxalq Uşaqları Müdafiə Günü qeyd olunub. Əlamətdar gün 1949-cu ildə Beynəlxalq Demokratik Qadınlar Federasiyasının Parisdə keçirilən konqresində təsis olunub. Bundan əlavə, 1956-cı ildən uşaqlarla bağlı daha bir gün, BMT tərəfindən təsis edilən 20 noyabr – Dünya Uşaq Günü (Universal Children's Day) də qeyd olunur.

**69 il əvvəl...**



**2 iyun 1953-cü ildə** Böyük Britaniya Kraliçası II Elizabetin tacqoyma mərasimi keçirilib. O, 1952-ci ilin əvvəlində atası VI Georqun vəfatından sonra kraliça elan edilsə də, tacqoyma mərasimi 16 ay gec təşkil olundu. 70 ildir Britaniya taxtında oturan II Elizabet dünyanın ən uzunömürlü monarxıdır.

**60 il əvvəl...**

**1-2 iyun 1962-ci ildə** Rostov vilayətinin (Rusiya) Novoçerkassk şəhərində Sovet İttifaqı tarixində ən böyük sosial xarakterli iğtişaşlardan biri baş verib. Qiymətlərin görünməmiş şəkildə qalxması (1961-ci il pul islahatından sonra) ayrı-ayrı yerlərdə etirazlar doğurmuşdu. Novoçerkassk şəhərinə fəhlələrin kütləvi etirazını yatırmaq üçün qoşun hissələri yeridiblər. Toqquşma nəticəsində şəhərin 24 sakini həlak olmuşdu. Sovet tarixinin ört-basdır etdiyi hadisə yalnız 80-ci illərin sonlarında geniş ictimaiyyətə bəlli oldu.

**33 il əvvəl...**

**3 iyun 1989-cu ildə** Çinin paytaxtı Pekindəki Tyananmen meydanında aprel ayından davam edən fasiləsiz tələbə mitinqləri hərbi güclə yatırdılıb. Milyona yaxın tələbənin etiraz aksiyasını dağıtmaq üçün meydana tanklar yeridilib. Qeyri-rəsmi məlumatlara görə, meydanda mindən çox adam həlak olmuşdu.

**30 il əvvəl...**

**3 iyun 1992-ci ildə** Azərbaycan Respublikası BMT-nin təhsil, elm, mədəniyyət təşkilatı olan UNESCO-ya üzv qəbul edilib. 1996-cı ildə UNESCO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

**26 il əvvəl...**

**3 iyun 1996-cı ildə** Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan prezidentləri Boris Yeltsin, Heydər Əliyev, Eduard Şevardnadze, Levon Ter-Petrosyan Kislovodsk şəhərində "Qafqazda millətlərarası barışıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda Bəyannamə" imzalayıblar. Bu sənədlə "Qafqaz dördlüyü" formatının əsası qoyulub. Amma onun real ömrü olmadı.

**Hazırladı: V.Orxan**

# "Xarıbülbül və Qarabağ"

## Milli geyim kolleksiyası Osloda nümayiş etdirilib

Mayın 29-da Norveçin paytaxtı Osloda tanınmış modelyer, Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilovanın "Xarıbülbül və Qarabağ" adlı milli geyim kolleksiyası nümayiş etdirilib. Təqdimat Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAYO) və Oslo Azərbaycan Evinin təşkilatçılığı ilə gerçəkləşib.




Oslonun "Cosmopolite" səhnəsində nümayiş etdirilən kolleksiyanın təqdimatı Azərbaycanın Müstəqillik Gününə və "Şuşa İli"nə həsr olunub.

Bu il 50 illik yubileyini qeyd edən modelyer "Xarıbülbül və Qarabağ" kolleksiyasının Norveçdə təqdimatını əlamətdar hadisə adlandırıb. "Bütün yaradıcılıq fəaliyyətim boyu həmişə milli dəyərləri təbliğ etməyə, Azərbaycan milli geyim ənənələrini qoruyub saxlamağa və inkişaf etdirməyə çalışmışam. Bizim gözəl mədəniyyətimiz, adət-ənənələrimiz bütün dünyada tanınmalıdır", – deyə Gülnarə Xəlilova bildirib.

Xatırladaq ki, bundan əvvəl G.Xəlilovanın kolleksiyaları moda həftələrində və beynəlxalq tədbirlərdə Türkiyə, Rusiya, Çin, Avstriya, Rumıniya, Böyük Britaniya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, ABŞ, Bolqarıstan, İsveç və digər ölkələrdə uğurla təqdim olunub.

**Lalə**

# "Qızıl palma budağı" "Kədər üçbucağı"na verildi

## Kann kinofestivalının mükafatçıları



Xəbər verdiyimiz kimi, 17-28 may tarixində 75-ci Kann Beynəlxalq Film Festivalı keçirilib. COVİD-19 pandemiyası səbəbindən 2020-ci ildə keçirilməyən, 2021-ci ildə isə məhdud formatda təşkil olunan Avropanın ən nüfuzlu kino müsabiqəsi bu dəfə ənənəvi təmtəraqla gerçəkləşib.

Yubiley festivalının əsas müsabiqə proqramında 21 film yer alıb. Filmləri fransalı aktyor və rejissor Vinsent Lindonun sədrlik etdiyi münsiflər heyəti – rejissorlar Əsgər Fərhadi (İran), Ceff Nikols (ABŞ), Yoakim Trier (Norveç) və Ladj Ly (Fransa) və dörd aktrisa – britaniyalı Rebecca Hall, hindistanlı Deepika Padukone, isveçli Noomi Rapace, italyan Jasmine Trinca dəyərləndiriblər.

Kann kinofestivalının baş mükafatına – "Qızıl palma budağı"na İsveç rejissoru Ruben Estlundun "Kədər üçbucağı" filmi layiq görülüb. Ekran əsəri İsveç, Fransa, Almaniya, Britaniya kinematoqrafçılarının iştirakı ilə ərsəyə gəlib.

Qran-pri ("Gümüş palma budağı") mükafatını fransız xanım rejissor Kler Deni "Günorta ulduzları" filminə (Fransa, ABŞ, Panama) görə və belçikalı rejissor Lukas Dont "Yaxın" filminə (Belçika, Niderland, Fransa) görə qazanıb.

Kann kinofestivalının dəyərinə görə üçüncü təltifi sayılan "Jüri mükafatı"na da iki ekran əsəri – Polşa rejissoru Yeji Skolimovskinin "İa" (Polşa, İtaliya) və belçikalı Feliks van Qruningen ilə Şarlotta Vandermersin "Səkkiz dağ" (Belçika, İtaliya) filmləri layiq görülüb.

Bundan əlavə, ən yaxşı rejissura (Pak Çxan Uk, Cənubi Koreya, "Ayrılmaq qərarı" filmi), ən yaxşı ssenari (Misir əsilli İsveç rejissoru Tarik Salehin "Göylərdən gələn oğlan" filmi) üçün mükafatlar təqdim olunub.

Ən yaxşı kişi roluna görə Son Kan Ho (Cənubi Koreya, "Broker" filmi), ən yaxşı qadın roluna görə Fransada yaşayan İran əsilli aktrisa Zar (Zəhra) Amir İbrahimi (İsveç, Danimarka, Fransa və Almaniyanın birgə istehsalı olan "Müqəddəs hörümçək" filmi) mükafatlandırılıblar.

Kann kinofestivalının 75 illiyi şərəfinə xüsusi mükafatı "Tori və Lokita" filminə görə belçikalı Darden qardaşları (rejissor və ssenaristlər Jan Pyer Darden və Lük Darden) qazanıblar.

Builki Kann festivalının fəxri "Qızıl palma budağı" (kino sahəsində xidmətlərə görə) ilə amerikalı aktyor, rejissor, prodüser Forest Vitaker və Hollivud ulduzu Tom Kruz təltif olunublar.

**V.Kamal**

# "İncil"in dilimizə tərcüməsinin XVII əsrə aid nüsxəsi

İsveçdə "İncil"in Azərbaycan dilinə tərcüməsinin XVII əsrə aid nüsxəsi aşkar edilib.

Matfey və İohanın "İncil"in tərcüməsi latın şrifti ilə fransız dilinin orfoqrafiyasına uyğun olaraq İsfahanda yazıya alınıb. Əlyazma 1680-ci illərdə Moskvada olmuş isveçli səyyah Yohan Qabriel Sparvenfeld tərəfindən əldə edilib. Nadir tarixi əlyazma hazırda Uppsala Universitetinin kitabxanasında saxlanılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5072. **Sifariş:** 1558

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641